RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 20 (8613) CÜMƏ, 29 yanvar 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az






# Ölkəmizdə heç bir sosial layihə təxirə salınmır





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 28-də paytaxtın Sabunçu rayonunda yenidən inşa olunan 90 saylı və Suraxanı rayonunda 97 saylı orta məktəblərdə yaradılan şəraitlə tanış olub. Hər iki məktəbdə yeni korpusların tikintisi və təmir-bərpa işləri Azərbaycan Prezidentinin "Bakı şəhərində və onun qəsəbələrində təhsil müəssisələrinin tikintisi və təmiri ilə bağlı tədbirlər haqqında" 2020-ci il 5 may tarixli Sərəncamına əsasən həyata keçirilib.

Ardı 2-ci səh.



# İlham Əliyev qətiyyətinin təntənəsi



Vətən müharibəsi Azərbaycan xalqının milli qürurunun təntənəsinə çevrilərək torpaqlarımızın işğaldan azad edilməsi, respublikamızın ərazi bütövlüyünün bərpa olunması ilə nəticələndi. İlham Əliyevin Ali Baş Komandanlığı ilə qəhrəman ordumuz cəmi 44 gün ərzində 30 illik erməni işğalına son qoydu, tariximizi şərəfləndirən, gələcəyimizə işıq salan böyük Qələbəyə imza atdı.

## Müharibə Azərbaycan xalqının əyilməz olduğunu göstərdi

Xalqımız müharibə başlayandan yumruq kimi bir oldu, vətən torpaqlarının azadlığı uğundu ayağa qalxdı. İlham Əliyevin qeyd etdiyi kimi, bu müharibə bir daha Azərbaycan xalqının əyilməz ruhunu göstərdi. 44 gün ərzində bütün dünya Azərbaycanı yenidən tanıdı, onun rəhbərinin yenilməzliyinə, siyasi müdrikliyinə şahidlik etdi.

Qələbəmizin müəllifi olan İlham Əliyevin erməni işğalçılığına qarşı mübarizəsi respublikamıza rəhbərliyinin ilk günündən başlamışdı. "Hamı bilməlidir ki, sülh tərəfdarı olmağımıza baxmayaraq, müharibənin yenidən başlanmamasını və bu məsələnin sülh yolu ilə həllini istəməyimizə baxmayaraq, bizim səbrimiz də tükənməz deyildir. Azərbaycan öz doğma torpaqlarını nəyin bahasına olursa-olsun, azad edəcəkdir" deyə İlham Əliyev hələ Prezident kimi fəaliyyətə başladığı 2003-cü ildə andiçmə mərasimində bildirmişdi.

Bu illər ərzində İlham Əliyev danışıqlar prosesində və bütün beynəlxalq tribunalardan Azərbaycanın milli maraqlarını qətiyyətlə təmin etdi. Nəticədə 17 ildə Ermənistanın işğalçılıq siyasətinin beynəlxalq aləmdə ifşasına nail olundu, diplomatik sferada üstünlük əldə edildi. Ötən müddətdə İlham Əliyev Azərbaycan torpaqlarında ikinci erməni dövlətinin yaradılmasına imkan verilməyəcəyini qətiyyətlə bütün dünyaya çatdırdı.

İlham Əliyevin ordu quruculuğu ilə bağlı gördüyü işlərin məqsədi də aydın idi. Silahlı Qüvvələrimizin modernləşdirilməsi, Azərbaycan əsgərinin döyüş imkanlarının ən müasir səviyyəyə çatdırılması, yalnız bir amala - torpaqlarımızın azad olunmasına xidmət edirdi. Prezident çıxışlarında dəfələrlə birmənalı şəkildə bəyan edirdi ki, danışıqlar prosesi nəticəsiz qalarsa, işğal altında olan torpaqlarımız güc yolu ilə azad olunacaq.

Ardı 2-ci səh.

# Yeni Azərbaycan Partiyası "Vahid Rusiya" Partiyasına etiraz məktubu ünvanlayıb

Yeni Azərbaycan Partiyası Rusiya Dövlət Dumasının üzvü V.Milonovun Azərbaycana qarşı qərəzli çıxışları ilə əlaqədar "Vahid Rusiya" Partiyasına etiraz məktubu ünvanlayıb.

Məktubda deyilir: "Bu günlərdə Rusiya Federasiyası Dövlət Dumasının "Vahid Rusiya" Partiyasından olan üzvü Vitali Milonov bir sıra erməni və Rusiya mediasına müsahibəsi zamanı Azərbaycan xalqına qarşı təhqiramiz ifadələr səsləndirərək açıq-aşkar qərəzli mövqe və nifrət sərgiləyib".

Qeyd edilib ki, 44 günlük Vətən müharibəsi dövründə də V.Milonovun Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinə qeyri-qanuni səfəri Azərbaycan ictimaiyyətində ciddi narazılıq doğurmuş, onun adı haqlı olaraq Azərbaycana girişi qadağan olunan xarici vətəndaşlar siyahısına daxil edilmişdir.

Görünən odur ki, V.Milonov özünün səhvlərindən nəticə çıxarmayaraq Dumanın hakim partiyadan olan digər üzvü K.Zatulinin Azərbaycana qarşı sərgilədiyi qərəzli mövqeyi daha aqressiv şəkildə davam etdirməkdədir.

YAP-ın "Vahid Rusiya" Partiyasına etiraz məktubunda daha sonra bildirilir: "Yeni Azərbaycan Partiyası Dövlət Dumasının üzvü V.Milonovun ölkəmizə qarşı təxribatçı davranışını və təhqiramiz çıxışlarını qətiyyətlə pisləyir və qeyd etməyi lazım bilir ki, bu cür hallar Azərbaycanla Rusiya arasındakı dostluq münasibətlərinin ruhuna tamamilə ziddir. Şübhə yoxdur ki, onun hərəkətləri Azərbaycan, Rusiya və Ermənistan rəhbərləri arasında əldə olunmuş, regionda sülhə və inkişafa yeni imkanlar açan razılaşmalara kölgə salmaq məqsədi daşıyır.

Dövlət Dumasında hakim "Vahid Rusiya" Partiyasını təmsil edən V.Milonovun və K.Zatulinin Azərbaycana qarşı gizlədilməyən qeyri-dost münasibəti bizdə təəssüf doğurur. Onların məsuliyyətsiz bəyanatları ikitərəfli qaydada və beynəlxalq təşkilatlar çərçivəsində sıx əməkdaşlıq edən partiyalarımızın xoş münasibətləri ilə bir araya sığmır.

Ümid edirik ki, "Vahid Rusiya" Partiyası və onun parlament fraksiyası partiyanın Rusiya Federasiyasının Dövlət Dumasındakı təmsilçilərinin gələcəkdə Azərbaycan Respublikasına qarşı bu cür düşünülməmiş və qərəzli bəyanatlar səsləndirməməsi üçün müvafiq tədbirlər görəcəkdir".

# Yeni nəqliyyat layihələri iqtisadi inkişaf üçün geniş imkanlar yaradır

Məlum olduğu kimi, yanvarın 21-də Azərbaycan və Türkmənistan arasında Xəzər dənizində "Dostluq" yatağının karbohidrogen resurslarının birgə kəşfiyyatı, işlənməsi və mənimsənilməsi barədə Anlaşma Memorandumu imzalanıb.

Bu yatağın birgə işlənməsinin hər iki ölkəyə fayda gətirəcəyi, həmçinin ölkələrimiz arasındakı dostluq və iqtisadi əməkdaşlığa yeni töhfələr verəcəyi şübhəsizdir.

Memorandumun imzalanması mərasimində videokonfrans formatında iştirak edən Azərbaycan Prezidenti İlham Əliyev və Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov yeni yatağın istismarı barədə imzalanmış sənədi yüksək qiymətləndirmiş, iki ölkə arasında yaranacaq nəqliyyat əlaqələrinin tərəflər üçün xüsusi əhəmiyyət daşıdığını vurğulamışlar. Qeyd etmişlər ki, bu nəqliyyat dəhlizi təkcə iki ölkəyə deyil, bütün regiona böyük fayda gətirəcək.




Prezident İlham Əliyev nəqliyyat sektorunda həyata keçirilən layihələrin əhəmiyyətini yüksək qiymətləndirərək demişdir: "Türkmənistan və Azərbaycan nəqliyyat infrastrukturunun, məhz sıx qarşılıqlı əlaqəli şəkildə işləyən və bizim ərazilərimizdən keçməklə yüklərin tranzitini təmin edən, habelə Azərbaycan ilə Türkmənistan arasında əmtəə dövriyyəsi imkanlarını artıran müasir beynəlxalq dəniz limanları yaradılması layihələrini bir növ sinxronlaşdırıblar. Əminəm ki, ölkələrimiz arasında nəqliyyat-logistika sahəsində əməkdaşlıq bizim regionda yaranmış yeni şərait və yeni nəqliyyat yollarının açılması imkanları nəzərə alınmaqla daha yüksək səviyyəyə çatacaq. Düşünürəm ki, bu, bizim bütün tərəfdaşlarımız və qonşularımız üçün əlavə imkanlar yaradacaq".

Dövlət başçısı həmçinin qeyd etmişdir ki, Türkmənistanla nəqliyyat-logistika sahəsində əməkdaşlıq təkcə iki ölkəyə deyil, regiona, hətta regiondan uzaqda - Avrasiya məkanında yerləşən bütün ölkələrə yeni imkanlar açır. Prezident İlham Əliyev eyni zamanda Türkmənistanın nəqliyyat-logistika sahəsində həyata keçirdiyi investisiya siyasətini yüksək qiymətləndirmişdir. Bildirmişdir ki, Lapis-Lazuli Türkmənistanın yatırdığı investisiya sayəsində reallaşıb. Bunun nəticəsində Əfqanıstandan yüklərin Türkmənistana, Azərbaycana və digər ölkələrə çatdırılmasına imkan verən dəmir yolu layihəsinin reallaşması Türkmənistanın ayırdığı investisiya ilə həyata keçirilib. Bununla yanaşı, ölkələrimizin təşəbbüsü ilə regionda bir sıra üçtərəfli tranzit layihələri reallaşdırılır. Hazırda Azərbaycan, Türkmənistan və Türkiyə, həmçinin Azərbaycan, Əfqanıstan və Türkmənistan arasında üçtərəfli əməkdaşlıq formatı mövcuddur. Bu növ əməkdaşlıq region ölkələri arasında yük dövriyyəsinin ildən-ilə artmasını şərtləndirir.

Öz növbəsində Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov iki ölkə arasında olan nəqliyyat əlaqələrini yüksək qiymətləndirmişdir: "Nəqliyyat sferası da bizim tərəfdaşlığımızın mühüm sahəsidir.

Ardı 5-ci səh.

# Karantin rejimi yumşaldılsa da, məsuliyyətimiz azalmamalıdır

Bütün dünyada milyonlarla insanı ciddi sınağa çəkən COVID-19 eyni zamanda qlobal iqtisadiyyata təsir göstərərək "başağrısına", böyük itkilərə səbəb olub.

Ötən il Çindən başlayan və qısa zaman ərzində dünyanı çənginə alan koronavirus (COVID-19) infeksiyasının qurbanları az olmayıb. Bu bəşəri fəlakətdən az itki ilə çıxmaq üçün bütün mümkün vasitələrdən istifadı edilsə də, nəticə gözlənilənləri əks etdirməyib. Bu da ayrı-ayrılıqda dövlətlərin bəladan xilas yollarının axtarışının davamını labüd edir.

Mütəxəssislər belə infeksiyaların dəfələrlə baş verdiyini və ondan xilasın mümkünlüyünü bildirsələr də, daha onun fəlakət həddinə gətirəcəyinə inanmayanlar da az olmadı. Nəticədə yoluxma hallarında artım müşahidə edildi.

Ardı 6-cı səh.

# Ermənistan daha böyük siyasi böhranın astanasındadır

Qarabağ müharibəsində məğlubiyyət Ermənistanda elə bir siyasi böhran yaradıb ki, ölkədə həyatın bütün sahələri iflic olub.

Belə bir şəraitdə Ermənistan rəhbərliyi vəziyyətdən istifadə edərək idarəçilikdə öz maraqlarını təmin edən addımlar atmaq istəyir. Söhbət parlamentin özünüburaxma hüququndan gedir. Belə ki, hakim "Mənim addımım" parlament fraksiyası daxili siyasi böhran fonunda konstitusiya dəyişiklikləri layihəsini müzakirə edir. Dəyişiklik qəbul olunsa, parlament özünü buraxmaq hüququna sahib olacaq.

"İravnuk" qəzetinin xəbərinə görə, layihədə Ermənistan konstitusiyasının 92-ci maddəsinə deputat sayının beşdə üçünün qərarı ilə parlamentin buraxılmasına və növbədənkənar seçkilərin keçirilməsinə dair bəndin əlavə edilməsi nəzərdə tutulur.

Ardı 6-cı səh.

# Ölkəmizdə heç bir sosial layihə təxirə salınmır







*Əvvəli 1-ci səh.*

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev əvvəlcə Sabunçu rayonunun Ramana qəsəbəsində yerləşən 90 saylı məktəbdə yaradılan şəraitlə tanış oldu.

Dövlət başçısına məlumat verildi ki, bu təhsil ocağının 1939-cu və 2002-ci illərdə inşa edilən iki korpusu sökülərək onların yerində 960 şagird yerlik yeni korpus tikilib. Məktəbin müasir tədris avadanlığı ilə təchiz olunan yeni korpusunda 40 sinif, 2 informatika, 4 əmək təlimi otağı, hərbi, musiqi kabinetləri, kimya, fizika, biologiya laboratoriyaları, kitabxana, idman və akt zalları, 2 yeməkxana yaradılıb. Bu təhsil ocağında 2006-cı ildə inşa edilən 288 şagird yerlik tədris korpusu və idman zalı da əsaslı təmir edilib.

Məktəb üçün yeni qazanxana, nasosxana, hər birinin tutumu 100 kubmetr olan 2 yeraltı su anbarı inşa edilib, həyətyanı sahədə abadlaşdırma, işıqlandırma və yaşıllaşdırma işləri görülüb.

* * *

Prezident İlham Əliyev Bakının Suraxanı rayonunun Əmircan qəsəbəsində yerləşən 97 saylı orta məktəbdə yaradılan şəraitlə də tanış oldu.

Məlumat verildi ki, təhsil ocağının 1937-ci və 1970-ci illərdə inşa edilən iki korpusu sökülüb, onların yerində 264 şagird yerlik dördmərtəbəli yeni müasir korpus tikilib. Eyni zamanda 2007-ci ildə ibtidai siniflər üçün inşa edilən korpus əsaslı təmir olunub. Yeni tikilən və əsaslı təmir edilən korpuslarda zəruri tədris avadanlığı və vəsaiti ilə təchiz olunmuş sinif otaqları, fənn kabinetləri, laboratoriyalar, kitabxana, yeməkxana, idman və akt zalları var.

Həyətyanı sahəsində geniş abadlaşdırma, işıqlandırma və yaşıllaşdırma işləri aparılan məktəb üçün yeni qazanxana, nasosxana və yeraltı su anbarları inşa edilib.

Qeyd edək ki, məktəblərin tikintisi və əsaslı təmiri Azərbaycanda həyata keçirilən sosial infrastruktur layihələri içərisində xüsusi yer tutur. Çünki təhsil sahəsində keyfiyyət dəyişiklikləri üçün sistemli yanaşma var və maddi-texniki bazanın təkmilləşdirilməsi yenidənqurma işləri ilə paralel aparılır.

Görülən işlər bir daha sübut edir ki, hətta pandemiyanın dünya, o cümlədən Azərbaycan iqtisadiyyatına təsirlərinə baxmayaraq, ölkəmizdə heç bir sosial layihə təxirə salınmır.







## Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 765, № 9, maddə 1650, № 10, maddə 1789, № 12 (I kitab), maddələr 2314, 2321; 2018, № 1, maddə 54, № 2, maddələr 200, 219, № 3, maddələr 416, 430, 448, № 5, maddələr 916, 919, № 6, maddə 1243, № 9, maddələr 1828, 1840, № 11, maddələr 2274, 2289, № 12 (I kitab), maddələr 2540, 2587, 2601; 2019, № 1, maddə 82, № 2, maddə 216, № 3, maddə 431, № 4, maddə 620, № 5, maddələr 819, 824, 835, 866, № 7, maddə 1221, № 8, maddə 1388, № 10, maddələr 1581, 1587, № 11, maddələr 1700, 1710; 2020, № 3, maddə 252, № 5, maddələr 538, 564, № 6, maddələr 710, 714, № 7, maddələr 865, 880, № 8, maddə 1032; Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 12 noyabr tarixli 1176 nömrəli və 30 dekabr tarixli 1222 nömrəli fərmanları) ilə təsdiq edilmiş "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın 18-1-ci hissəsində "bölmələrin rəhbərləri" sözləri "bölmənin rəhbəri, onun müavini, sektor müdiri, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 yanvar 2021-ci il*

## Respublikanın qaz təsərrüfatında mövcud problemlər müzakirə olunub






Yanvarın 28-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədovun rəhbərliyi ilə respublikanın qaz təsərrüfatında mövcud problemlərə, o cümlədən qazdan səmərəli və təhlükəsiz istifadə qaydalarına həsr olunmuş videoformatda iclas keçirilib.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, iclasda mövcud problemlərin həlli istiqamətində müzakirələr aparılıb, müvafiq tapşırıqlar verilib.

İclasda Azərbaycan Respublikası Baş Prokurorluğunun, Energetika, Fövqəladə Hallar, Ədliyyə, Maliyyə, İqtisadiyyat nazirliklərinin, həmçinin Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin, SOCAR-ın və "Azəriqaz" İB-nin rəhbərliyi iştirak edib.

## İlham Əliyev qətiyyətinin təntənəsi

*Əvvəli 1-ci səh.*

2017-ci il iyunun 14-də Cocuq Mərcanlıda olarkən Lələtəpədə və işğaldan azad edilmiş digər torpaqlarda Azərbaycan bayrağının dalğalanacağını qeyd edən Prezident "Gün gələcək ki, bizim bayrağımız Şuşada da qaldırılacaq" deyə bildirmişdi.

Beləliklə, Vətən müharibəsi Dağlıq Qarabağ məsələsi ilə bağlı Prezident İlham Əliyevin qətiyyətinin, siyasi uzaqgörənliyinin, verdiyi vədlərin təntənəsi və təcəssümü oldu. Bu günlərdə Aydın Kərimovu Prezidentin Şuşa rayonunda xüsusi nümayəndəsi təyin olunması ilə əlaqədar videoformatda qəbul edən İlham Əliyev bu barədə danışaraq dedi: "Biz Şuşanı dünyanın ən gözəl şəhərlərindən birinə çevirməliyik və çevirəcəyik. Mən bu sözü vermişəm və bu sözümü də icra edəcəyəm. Necə ki, əvvəlki dövrlərdə demişdim, biz heç vaxt Azərbaycan torpağında ikinci erməni dövlətinin yaranmasına imkan verməyəcəyik və vermədik. Demişdim ki, Azərbaycan bayrağı Şuşada qaldırılacaq və qaldırıldı".

### Ali Baş Komandan tariximizi xəyanətkarların vurduğu qara ləkələrdən təmizlədi

Bu müharibədə milli maraqları hər şeydən uca tutan siyasi partiyalar da Ali Baş Komandana dəstəklərini ifadə etdilər. Lakin müharibənin xalqımızın qələbəsi ilə başa çatmasından sonra da özünü müxalifətçi hesab edən şəxslər Azərbaycanın uğuruna kölgə salmaq yolu tutublar. Böyük zəfəri paylaşmaq, bölüşmək əvəzinə onlar yenə də köhnə xislətlərinə sadiq qalaraq bu qələbəyə qara yaxmağa çalışırlar. Bu həmin şəxslərdir ki, vaxtilə torpaqlarımız onların təmsil olunduqları hakimiyyətin xəyanəti nəticəsində işğal edilmişdi. Onlar hakimiyyət davasına çıxaraq Şuşanın, Laçının işğal edilməsinə səbəb olmuşdular. "Şuşanın 1992-ci il mayın 8-də itirilməsi böyük faciə idi. Bu faciənin günahkarları AXC-Müsavat cütlüyüdür. Hamı bunu bilməlidir, heç kim bunu unutmamalıdır. O vaxt Azərbaycanda hakimiyyət uğrunda mübarizə gedirdi. AXC-Müsavat cütlüyü hakimiyyətə can atırdı, ovaxtkı hakimiyyəti yıxmaq üçün bu təxribatı törətdi, Şuşanı faktiki olaraq düşmənə təhvil verdi" deyə Prezident İlham Əliyev bildirib.

Bəli, Şuşanın, Laçının işğalı təxribatın, xəyanətin nəticəsi idi. Təsadüfi deyil ki, xəyanətin səbəbkarı olan AXC-Müsavat cütlüyü həmin vaxt çevriliş edərək hakimiyyəti ələ keçirmişdi. Daha sonra məhz onların hakimiyyətinin xəyanətkar və naşı siyasəti, bais olduqları siyasi böhran nəticəsində digər rayonlarımız da işğal edilmişdi.

İlham Əliyev onların işğala səbəb olduqları rayonlarımızı, şəhərlərimizi azad etdi. Tariximizi həmin xəyanətkarların vurduğu qara ləkələrdən təmizlədi. İlham Əliyev AXC-Müsavat cütlüyünün bais olduğu məğlubiyyət damğasını xalqımızın üzərindən götürdü.

### Şuşa əməliyyatı Azərbaycan xalqının qəlbində əbədi yaşayacaq

Bütövlükdə Vətən müharibəsinin özü ilə yanaşı, hər bir şəhər və kəndimizin işğaldan azad edilməsi ayrıca qəhrəmanlıq səhifəsidir. Bu səhifəni Müzəffər Ali Baş Komandan İlham Əliyev, onun rəhbərlik etdiyi şanlı Azərbaycan Ordusu yazdı. Onların arasında Şuşanın azad edilməsinin xüsusi yeri var.

Prezident İlham Əliyev müharibə günlərində - oktyabrın 16-da Türkiyənin "A Haber" televiziya kanalına müsahibəsi zamanı jurnalistin sualını cavablandırarkən "Əlbəttə ki, Şuşasız bizim işimiz yarımçıq olar" demişdi. İlham Əliyev bu cavabla mütləq Şuşanın işğaldan azad olunacağını xalqa çatdırmışdı. Qarabağı Şuşasız təsəvvür etmək mümkün deyil. Şuşa tək milli mədəniyyətimizin deyil, həm də milli qürurumuzun məbədidir və şanlı Azərbaycan Ordusu onu mütləq işğaldan azad etməliydi. Ona görə ordumuz şəhər və kəndlərimizi azad etdikcə nəzərlər Şuşaya yönəlmişdi, hər bir azərbaycanlı doğma şəhərimizin işğaldan azad olunması müjdəsini səbirsizliklə gözləyirdi.

Noyabrın 8-də Prezident İlham Əliyevin Şuşanın azad olunması müjdəsini xalqımıza çatdırması Azərbaycanın hər yerində böyük coşqu ilə qarşılandı. Şuşanın azad olunduğu gün tariximizə Zəfər Günü kimi həkk olundu. Qəhrəman əsgərlərimizin Şuşanı azad etməsi həm də Vətən müharibəsinin ən unikal hərbi əməliyyatı kimi tarixə düşdü. "Şuşa əməliyyatı Azərbaycan xalqının qəlbində əbədi yaşayacaq. Şuşa uğrunda gedən döyüşlərdə şəhid olmuş qəhrəman övladlarımızın əziz xatirəsi bizim qəlbimizdə əbədi yaşayacaq. Şuşanı azad edərkən Azərbaycan əsgər və zabiti qəhrəmanlıq, peşəkarlıq, fiziki güc, yüksək milli ruh göstərib. O, Daşaltı istiqamətindən, digər istiqamətlərdən, sıldırım qayalardan qalxaraq, işğalçıları məhv edərək Şuşanı azad edib, demək olar ki, əliyalın, əlində süngü, bıçaq, yüngül silah topa, tanka qarşı vuruşub" deyə İlham Əliyev bildirib.

### Şuşa qısa zamanda dirçələcək, tarixi şöhrətini bərpa edəcək

İşğal dövründə Şuşa düşmən qarşısında sınmadı, əyilmədi. Ermənistan nə qədər çalışsa da, Azərbaycanın bu şəhərini erməniləşdirə bilmədi. Çünki hər küçəsində, hər abidəsində yalnız Azərbaycan xalqının mədəniyyətinin, milli dəyərlərinin, ulu tarixinin silinməz izi var. Şuşanın hər bir daşı xalqımızın mənəvi sərvətidir və onu tarixdən silmək mümkün deyil.

Ermənistan işğal dövründə nə qədər cəhd etsə də, Şuşanı məskunlaşdıra bilməyib və şəhərdə əsasən hərbçilər yaşayıblar. Erməni diasporunun hesabına nə qədər layihələr həyata keçirilsə də, işğalçılar Şuşanı turizm məkanına çevirə bilməyiblər. Fransadan və digər ölkələrdən nümayəndə heyətləri gəlsə də, hər il müxtəlif idman yarışları keçirilsə də, ermənilər Şuşa ilə bağlı hədəflərinə çata bilməyiblər. Çünki Şuşa heç vaxt yadları qəbul etməyəcəkdi.

Artıq Şuşa azaddır, onun tarixi sahibi geri qayıdıb. Şəhərin bərpası və yenidən qurulması Prezident İlham Əliyevin diqqət mərkəzindədir. Cənab İlham Əliyev Şuşanı Azərbaycanın mədəniyyət paytaxtı elan edib. Dövlət başçısı şəhərin bərpası ilə bağlı tapşırıqlarını verib. Bütün işlər planlı şəkildə aparılmalı və Şuşanın tarixi siması saxlanılmalıdır. Şuşaya yad olan hər hansı bir tikiliyə yol vermək olmaz.

İşğal dövründə düşmənə boyun əyməyən Şuşa Prezident İlham Əliyevin xüsusi diqqəti ilə qısa zamanda dirçələcək. Qədim yurd yerimiz olan bu şəhər tarixi şöhrətini ən yüksək səviyyədə bərpa edəcək, Azərbaycan xalqının milli mədəniyyətinin məbədi kimi regionun və dünyanın ən möhtəşəm mədəni mərkəzlərindən birinə çevriləcək.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi Kollegiyasının 2020-ci ilin yekunları və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilib

Yanvarın 28-də Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) Kollegiyasının 2020-ci ilin yekunları və qarşıda duran vəzifələrə həsr olunmuş onlayn iclası keçirilib.

Bu barədə komitənin Mətbuat xidmətindən məlumat verilib.

Ölkəmizin tarixinə 2020-ci ilin böyük Zəfər, Qələbə ili kimi yazıldığını qeyd edən DQİDK-nın sədri Mübariz Qurbanlı bildirib ki, 44 gün davam edən Vətən müharibəsində Azərbaycanın işğal olunmuş əraziləri Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuz tərəfindən erməni qəsbkarlarından azad edildi, müstəqil Azərbaycan dövləti özünün ən şanlı dövrünə qədəm qoydu. Prezident İlham Əliyevin 2020-ci ilin yekunlarına həsr olunmuş müşavirədə də bildirdiyi kimi, bu gün ölkəmiz iqtisadi, siyasi və hərbi gücü sayəsində regionda aparıcı rola malikdir.

M.Qurbanlı qeyd edib ki, Dövlət Komitəsi 2020-ci ildə fəaliyyətini Ulu Öndərin müəyyən etdiyi dövlət-din siyasətinə uyğun istiqamətdə qurub və il ərzində Prezident İlham Əliyevin rəhbərliyi altında qarşıya qoyulmuş məqsədlərə nail olmaq istiqamətində çalışıb. Komitə ötən il resurs və imkanlarını səfərbər etməklə pandemiya dövründə dini maarifləndirmə işinin aparılması, dini qurumların dövlət qeydiyyatına alınması, dini radikalizm və ekstremizmlə mübarizədə dinşünaslıq ekspertizasının keçirilməsi ilə bağlı işlər görüb. Həmin işlərin nəticəsidir ki, pandemiya dövründə və 44 günlük Vətən müharibəsində istər müsəlman, istərsə də qeyri-müsəlman vətəndaşlarımız, ölkəmizdəki bütün dini konfessiyalar vahid mövqe nümayiş etdirərək həmrəylik nümunəsi göstəriblər.

Müzəffər Ali Baş Komandanımız İlham Əliyevin işğaldan azad olunan torpaqlarımızda məscidləri ziyarət etməsi, eləcə də tarixi-dini abidələrimizin bərpa edilməsi istiqamətində verdiyi tapşırıqlara diqqət yetirən Komitə sədri bütün bunların dövlətin dinə qayğısının bariz nümunəsi olduğunu vurğulayıb. Qeyd edilib ki, Vətən müharibəsi dövründə Dövlət Komitəsi öz üzərinə düşən vəzifəni layiqincə yerinə yetirib. Eyni zamanda, Vətən müharibəsində Komitənin 6 əməkdaşı iştirak edib. Ermənistanın hərbi təcavüzünün qarşısının alınması, mülki əhalinin təhlükəsizliyinin təmin edilməsi və işğal altında olan torpaqlarımızın azad olunması üçün müzəffər Ordumuzun həyata keçirdiyi zəruri əks-həmlə tədbirlərinə dəstək məqsədilə Dövlət Komitəsinin rəhbərliyi və kollektivi könüllü olaraq Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə Yardım Fonduna vəsait köçürüb. Mənəvi Dəyərlərin Təbliği Fondu və Azərbaycan İlahiyyat İnstitutunun kollektivləri də bu aksiyada fəal iştirak edib. Həmçinin Prezident İlham Əliyevin "Biz birlikdə güclüyük!" çağırışına qoşularaq Koronavirusla Mübarizəyə Dəstək Fonduna ianə məqsədilə könüllü olaraq bu günə qədər Dövlət Komitəsi, Mənəvi Dəyərlərin Təbliği Fondu, Azərbaycan İlahiyyat İnstitutu vəsait köçürüb.

Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Agentliyinin direktoru Vüqar Babayev 2020-ci ildə agentliyin fəaliyyəti ilə bağlı məruzə ilə çıxış edərək bildirib ki, hesabat ilində Naxçıvan Muxtar Respublikası Qazısı yanında Şura ilə birlikdə Muxtar Respublikanın şəhər və rayonlarında dini ayinlərin icraçıları və yerli dindarlarla görüşlər keçirilib, yas mərasimlərinin düzgün formada idarə olunması haqda müvafiq tapşırıqlar verilib, ilin əvvəlində din xadimlərinin attestasiyası keçirilib. Habelə dini təyinatlı ədəbiyyatların, əşyaların və dini məzmunlu başqa məlumat materiallarının Naxçıvan ərazisində yayılmasına nəzarətin həyata keçirilməsi prosesi il ərzində prioritet olub. Hesabat ili ərzində ekspert rəyi verilməsi üçün müvafiq orqanlardan agentliyə 349 adda 1300 ədəd dini təyinatlı ədəbiyyat daxil olub ki, aparılan araşdırma nəticəsində dövlətçiliyimizə zidd, məzhəb ayrı-seçkiliyi salan və ifrat məzhəbçilik prinsipini təbliğ edən 271 adda 342 ədəd dini təyinatlı ədəbiyyatın yayılmasının qarşısı alınıb. Vüqar Babayev qeyd edib ki, ötən il ərzində Naxçıvan şəhərində yeni məscid kompleksinin tikintisi, eləcə də Cəhri kənd və Ordubad şəhər "Came" məscidlərində təmir işləri davam etdirilib. Hesabat dövründə Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Agentliyi dövlət-din münasibətlərinin tənzimlənməsi və bundan irəli gələn vəzifələrin təkmilləşdirilməsi, radikal və dini nifrət yayan cərəyanlara qarşı müvafiq tədbirlərin həyata keçirilməsi, dini icmalar və cəmiyyətdə milli-mənəvi dəyərlərimizin təbliği istiqamətində maarifləndirmə işlərinin təşkili istiqamətlərində fəaliyyət göstərib.

Dini qurumlarla iş üzrə şöbənin müdiri Cahandar Əlifzadə hesabat məruzəsi ilə çıxış edərək 2020-ci ildə görülən işlər və ölkədəki mövcud dini durum barədə ətraflı məlumat verib. O bildirib ki, hesabat dövrü ərzində Dövlət Komitəsinin əsas fəaliyyət istiqamətlərindən biri olan dini icmaların dövlət qeydiyyatına alınması prosesi davam etdirilib, 2-si xristian olmaqla 14 dini icma dövlət qeydiyyatından keçirilib, bununla da icmaların sayı 955-ə çatıb. Eyni zamanda, 3 ixtisaslaşdırılmış satış məntəqəsinin fəaliyyətinə razılıq verilib. 2020-ci ildə Dövlət Komitəsinə daxil olmuş müraciətlər əsasında idxalı nəzərdə tutulan 3680 adda dini məzmunlu ədəbiyyat dinşünaslıq ekspertizasından keçirilib, dini dözümsüzlüyü və radikallığı təbliğ edən 52 adda kitabın ölkəyə idxalı və yayılmasının qarşısı alınıb. Nəşr olunmaq məqsədilə təqdim edilmiş 205 adda dini ədəbiyyata baxılıb, onlardan 6-sının çapı məqsədəuyğun sayılmayıb. Həmçinin, hüquq mühafizə orqanları tərəfindən göndərilmiş 220 adda dini təyinatlı ədəbiyyata və digər məlumat materiallarına baxılıb, onlardan 63-nün zərərli, yaxud müvafiq razılıq alınmadan idxal və nəşr edildiyi müəyyən edilib. Hesabat dövründə 487 adda dini təyinatlı ədəbiyyata 679412 ədəd nəzarət markası verilib.

C.Əlifzadə qeyd edib ki, COVID-19 pandemiyası ilə əlaqədar ölkədə tətbiq olunan karantin rejiminə görə Tədbirlər Planında bəzi dəyişikliklər edilərək il ərzində keçirilməsi nəzərdə tutulan bir sıra tədbirlər təxirə salınıb, bəziləri videokonfranslar formatında keçirilib.

2020-ci il ərzində Dövlət Komitəsi tərəfindən ayrıca və digər qurumlarla birgə ümumilikdə 180-ə yaxın tədbir həyata keçirilib. Tədbirlərin təşkilində mərkəzi və yerli icra hakimiyyəti orqanları, Silahlı Qüvvələr, eləcə də hüquq mühafizə orqanları, təhsil müəssisələri, gənclər təşkilatları, dini qurumlar və digər QHT-lər ilə yaxından əməkdaşlıq edilib. Qeyd olunan qurumlarla yanaşı, Dövlət Komitəsi ötən illərin təcrübəsinin davamı olaraq, Təhsil Nazirliyi, Gənclər və İdman Nazirliyi, Mədəniyyət Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Azərbaycan Milli Elmlər Akademiyası, QMİ, Yeni Azərbaycan Partiyası ilə əməkdaşlığı davam etdirib. "Azərbaycanın dövlət-din modeli: dünyəvilik" mövzusunda Salyan rayonu və Yevlax şəhərində ikigünlük regional konfranslar, "Müasir reallıqlar kontekstində dövlət və din" mövzusunda Göygöl və Ağsu rayonlarında, həmçinin Gəncə və Şirvan şəhərlərində ikigünlük seminar-müşavirələr, "Dini təhsil, dini tərbiyə və dünyəvilik" mövzusunda Qubadlı, Balakən, Biləsuvar və Ucar rayon icra hakimiyyətləri ilə birgə seminar-treninqlər, "XXI əsrdən baxış: Din və qadın" mövzusunda Şəki şəhərində ikigünlük regional konfrans, "Dövlət-din münasibətləri: Tarix, hüquq və ənənə" mövzusunda Bakı şəhərinin Xocasən, Maştağa, Buzovna, Mərdəkan və Kürdəxanı qəsəbələrində seminar-treninqlər təşkil olunub. Azərbaycan Respublikası Baş Prokurorluğu, Daxili İşlər Nazirliyi, Dövlət Təhlükəsizliyi Xidməti və Dövlət Komitəsinin 2020-ci ildə dini ekstremizmə qarşı mübarizəyə dair birgə Tədbirlər Planı çərçivəsində "Dini məzhəbçilik meyillərinin dini təhlükəsizliyə təsiri" mövzusunda Hacıqabul rayonunda regional seminar-müşavirə keçirilib.

Vətən müharibəsi və ondan sonrakı dövrdə isə vətənpərvərliyi və vətəndaşlıq borcunu təbliğ edən "Vətən borcu", "Din xadimləri və dindarların vətənpərvərlik istiqamətində apardığı işlər və şəhid dəfnlərinin təşkili", "Şəhidlik", "Qazilik", "Şəhidlər ölməz, Vətən bölünməz", "Qan donorluğuna İslam dinində baxış", "Zəfər bizimdir", "Cəbhədəki qələbələrimiz və bayrağımız", "Qələbəmiz mübarək" kimi mövzularda onlayn tədbirlər keçirilib. Karantin rejiminin tələblərinə uyğun olaraq, Dövlət Komitəsinin Mərkəzi Aparatı və yerli şöbələri tərəfindən pandemiya dövründə də ölkə ərazisində dövlət-din münasibətlərinin tənzimlənməsi, o cümlədən çətin keçən bu günlərdə cəmiyyətimizin maddi və mənəvi cəhətdən səfərbər olunması, insanların mənəvi cəhətdən sıx birləşməsi istiqamətində videokonfrans formatında bir sıra maarifləndirici tədbirlər həyata keçirilib.

Hesabat dövründə dini durumun öyrənilməsi sahəsində tədbirlərin davam etdirildiyini qeyd edən şöbə müdiri mütəmadi olaraq monitorinqlərin keçirildiyini vurğulayıb. O qeyd edib ki, il ərzində müsəlman dini icmaları Ramazan və Məhərrəmlik ayları mərasimləri, Qurban bayramı, xristian dini icmalar Pasxa və Milad, yəhudilər Purim, Pesax və Roş-Ha-Şana bayramları qeyd ediblər. Bunlardan Purim bayramı istisna olmaqla, digərləri karantin rejimi dövrünə təsadüf edib. 2020-ci ildə karantin rejimi dövründə dini ayinlərin icrası ilə yanaşı, yas mərasimlərinin pandemiya ilə bağlı müəyyən olunmuş qaydalar çərçivəsində keçirilməsi xüsusi nəzarətdə saxlanılıb, Dövlət Komitəsinin bölgə şöbələri, QMİ-nin bölgə nümayəndəlikləri, yerli icra hakimiyyətləri və hüquq-mühafizə orqanlarının birgə tədbirləri nəticəsində bu sahədəki pozuntular aradan qaldırılıb.

Azərbaycan İlahiyyat İnstitutunun rektoru Aqil Şirinov hesabat dövründə görülən işlər barədə məlumat verərək qeyd edib ki, İnstitut 2020-ci il üzrə fəaliyyətini müvafiq iş planına əsasən yerinə yetirib. Qlobal pandemiya ilə əlaqədar respublikamızda həyata keçirilən tədbirlər çərçivəsində ölkə üzrə tədris və təlim-tərbiyə prosesinin mart ayından etibarən dayandırıldığına görə tədris prosesinin məsafədən aparıldığını deyən A.Şirinov bu məqsədlə institutun "Microsoft Teams" platformasına qoşulduğunu diqqətə çatdırıb.

Rektor bildirib ki, 2020-2021-ci tədris ilində Azərbaycan İlahiyyat İnstitutu İlahiyyat fakültəsinin I tədris ilinə Dinşünaslıq ixtisası üzrə 35 tələbə, İslamşünaslıq ixtisası üzrə 36 tələbə və 3 əcnəbi tələbə, Dinşünaslıq ixtisasına magistratura səviyyəsi üzrə 3 magistrant, doktorantura səviyyəsi üzrə isə 2 nəfər doktorant qəbul olunub. Tələbələrin təhsildə yüksək nəticələr əldə etmələri və dünyagörüşlərinin formalaşması məqsədilə tədris ili boyunca onlarla fərdi görüşlər aparılıb. Sosial müdafiəyə ehtiyacı olan 44 tələbə müəyyən edilərək Mənəvi Dəyərlərin Təbliği Fonduna sosial yardımla bağlı müraciət ünvanlanıb, həmin tələbələr fondun hesabına aylıq əlavə təqaüdlə təmin olunublar.

2020-ci ildə Azərbaycan İlahiyyat İnstitutu məzunlarının diplomlarının Türkiyə Respublikası Ali Təhsil Şurası (Yüksək Öyrətim Kurulu - YÖK) tərəfindən tanındığını deyən Aqil Şirinov bunun öz növbəsində, Aİİ tələbələrinə Türkiyədə asanlıqla magistratura və doktorantura pillələri üzrə təhsil almaq imkanı yaratdığını vurğulayıb. Hesabat ili ərzində Azərbaycan İlahiyyat İnstitutu ilə Türkiyənin Sakarya və Kocaeli Universitetləri arasında "Mövlanə" Mübadilə Proqramı, Türkiyənin Sivas Cümhuriyyət Universiteti ilə "Erasmus+" Mübadilə Proqramı Protokolu, Türkiyənin Sivas Cümhuriyyət Universiteti ilə Anlaşma Memorandumu imzalanıb. Eyni zamanda, Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Özbəkistan Respublikası Nazirlər Kabineti yanında Dini Məsələlər üzrə Dövlət Komitəsinin birgə təşkilatçılığı ilə keçirilmiş "Dini tolerantlıq dövlətin və cəmiyyətin inkişafında vacib amildir" mövzusunda beynəlxalq videokonfrans çərçivəsində Azərbaycan İlahiyyat İnstitutu və Özbəkistan Beynəlxalq İslam Akademiyası arasında Anlaşma Memorandumu imzalanıb.

Daha sonra Dövlət Komitəsinin tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondunun 2020-ci il ərzində fəaliyyətinə dair hesabatla fondun icraçı direktoru Mehman İsmayılov çıxış edib. O bildirib ki, MDTF-nin fəaliyyətinin başlıca istiqamətlərindən biri dini qurumların vətəndaşların dini etiqad azadlığının təmin olunması sahəsində fəaliyyətinə dəstək verməkdir. 2020-ci ildə 984 nəfər din xadiminə fond tərəfindən aylıq maddi dəstək göstərilib. Həmçinin Prezident İlham Əliyevin 2 iyun 2020-ci il tarixli Sərəncamı ilə fonda ayrılmış 100 min manat vəsait hesabına 22 qeyri-islam dini icmasına maliyyə yardımı verilib. Fondun Nizamnaməsinə uyğun olaraq il ərzində şəhid ailələri, Qarabağ əlilləri, aztəminatlı ailələr və tələbələrə, imkansız xəstələrə yardımlar etdiyini deyən M.İsmayılov bu yardımların bir hissəsinin dini icmalar vasitəsilə, bir hissəsinin isə birbaşa verildiyini deyib. Belə ki, xüsusi karantin rejimi ərəfəsində fond tərəfindən aprel ayında 161 şəhid ailəsi və aztəminatlı ailələrə ərzaq yardımı göstərilib, bununla yanaşı, infeksiya ilə birbaşa mübarizə aparan 65 tibb işçisinə hədiyyələr təqdim edilib. Ramazan bayramı münasibətilə may ayında ölkə üzrə ümumilikdə 166 şəhid ailəsinin üzvləri və müharibə əlillərinə bayram sovqatı (ərzaq) paylanılıb, həmçinin fond tərəfindən Qurban bayramı münasibətilə aksiya təşkil edilib, 16 şəhər və rayonda 2000-dən çox şəhid ailələri və aztəminatlı ailələrə qurban əti paylanıb. Fond tərəfindən Azərbaycan İlahiyyat İnstitutunun 44 tələbəsinə 100 manat məbləğində aylıq təqaüd verilib və adıçəkilən təhsil müəssisəsi tərəfindən təsis edilmiş "Heydər Əliyev mükafatı" maliyyələşdirilib. Qeyd edək ki, cari ilin noyabr ayından etibarən bu tələbələrdən 20 nəfərə verilən təqaüd artırılaraq 150 manat müəyyənləşdirilib. Həmçinin xüsusi karantin rejimi qaydalarına əsasən təhsilin onlayn formata keçirilməsi ilə əlaqədar olaraq 5 şəhid ailəsinin məktəbli üzvünə "Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyi vasitəsilə noutbuklar hədiyyə edilib. Vətən müharibəsi dövründə qismən səfərbərliyə cəlb edilmiş 100 aztəminatlı vətəndaşın ailəsinə fond tərəfindən ərzaq yardımı edilib, eyni zamanda, 50 aztəminatlı ailəyə maddi ehtiyaclarını qarşılamaq üçün 80 manat məbləğində alış-veriş kartları təqdim edilib. Cəbhə bölgəsində döyüş şəraitində fəaliyyətinə görə seçilən din xadimlərinə, dini ayinlərin və ritualların icrasını həyata keçirən 15 nəfərə maddi yardım göstərilib.

Mənəvi Dəyərlərin Təbliği Fondu tərəfindən mənəvi dəyərləri təbliğ edən 14 sənədli film və sosial videoçarx hazırlanıb, eyni zamanda, fondun dəstəyi ilə həyata keçirilən "Qarabağ üçün oxu 3" layihəsi çərçivəsində hazırlanan klip, bundan başqa, "Vətən borcu", Azərbaycan Bibliya Cəmiyyətinin sifarişi ilə çəkilən "Mənəvi borc" filmi, Bakı şəhəri Yevangelist Məsihi Baptistlərinin "Aqape" dini icmasının təşkilatçılığı ilə rus və ingilis dillərində hazırlanan "Dağlıq Qarabağda məhv edilən Azərbaycan dini abidələri" adlı videoçarx ictimaiyyətə təqdim edilib.

Fond 2020-ci ildə müxtəlif müəlliflər tərəfindən təqdim olunan mənəvi dəyərlərin təbliği, dinlərarası dialoqun gücləndirilməsi, radikalizmlə mübarizəyə aid maarifləndirici və dini mövzularda 22 adda ədəbiyyatın nəşrinə maliyyə dəstəyi göstərib. Fondun dəstəyi ilə "Azərbaycan tolerantlığında alman irsinin izləri və memarlığı" adlı kitabın nəşr edilməsindən dolayı Almaniya Federativ Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Volfqanq Maniq Mənəvi Dəyərlərin Təbliği Fonduna təşəkkür məktubu ünvanlayıb.

Vətən müharibəsi dövründə Azərbaycan həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılması istiqamətində görülmüş işlərlə bağlı məlumat verən Dövlət Komitəsinin Xarici əlaqələr şöbəsinin müdiri Əli Həziyev bildirib ki, sentyabrın 27-dən noyabrın 10-dək Azərbaycanın Ermənistan tərəfinin hərbi hücumuna qarşı apardığı əks-hücum hərbi əməliyyatları ilə yanaşı, düşmənə qarşı informasiya müharibəsi də aparılıb. Ermənistan tərəfinin münaqişəni beynəlxalq miqyasda dini müstəviyə çəkmək cəhdlərinə cavab olaraq, ölkədə fəaliyyət göstərən müsəlman və qeyri-müsəlman dini konfessiya rəhbərləri ilə sıx əməkdaşlıq şəraitində birgə bəyanatlar qəbul edilib. Belə ki, Qafqaz Müsəlmanları İdarəsi, Azərbaycandakı yəhudi icmaları, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası, Azərbaycandakı Katolik dini icması və Yevangelist-Xristian protestant dini icmaları tərəfindən rus və ingilis dillərində verilən bəyanatlarda erməni vandalizmi pislənilib, Azərbaycan xalqı ilə həmrəylik nümayiş etdirilib. Azərbaycanda fəaliyyət göstərən dini icma rəhbərlərinin müharibədən zərər görmüş yerlərə səfər etməsi ilə yanaşı, Bakı Avropa Yəhudiləri dini icmasının baş ravvini Şneor Seqalın rəhbərliyi ilə İsrail-Azərbaycan Palatasının üzvləri də 17 oktyabr 2020-ci il tarixdə Gəncəyə səfər edərək erməni hərbçiləri tərəfindən atılan raket zərbəsi nəticəsində evləri dağılan vətəndaşlarımıza dəstək nümayiş etdiriblər.

Eyni zamanda, müharibə vəziyyəti ilə bağlı Azərbaycan həqiqətlərinin ölkəmizdə fəaliyyət göstərən müsəlman və qeyri-müsəlman dini icmalarının rəhbərləri tərəfindən xarici ölkələrin müxtəlif rəsmi şəxslərinə və qurumlarına, dini sahə ilə məşğul olan xarici və beynəlxalq təşkilatlara, dini mərkəzlərə xarici dillərdə müraciətlərin ünvanlanmasında konsultativ iş aparılıb. Xüsusilə ABŞ Konqresinin üzvü Ceki Speyer tərəfindən Dağlıq Qarabağ münaqişəsi ilə bağlı 1 oktyabr 2020-ci ildə ABŞ Konqresinə təqdim olunmuş reallıqdan uzaq və yanlış səciyyəli 1165 saylı qətnamə layihəsinə etirazla bağlı ABŞ-ın ona yaxın dövlət və qeyri-dövlət qurumlarına müraciət ünvanlanıb.

Müharibə dövründə Azərbaycanın haqq səsinin videokonfrans formatında keçirilən beynəlxalq tədbirlərdə də müdafiə edildiyini vurğulayan Əli Həziyev bildirib ki, Türkiyənin Diyanət işləri başqanı Ali Erbaşın təşəbbüsü ilə İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin dini liderlərinin və dünyanın 60 ölkəsindən rəsmi şəxslərin iştirak etdiyi videokonfransa qatılan Dövlət Komitəsi sədrinin çıxışının böyük hissəsini Ermənistanın Azərbaycan xalqına və onun mədəni irsinə qarşı həyata keçirdiyi terror siyasətinə həsr edib. Eyni zamanda, ABŞ Dövlət Departamentinin dəstəyi, Polşa Xarici İşlər Nazirliyinin təşkilatçılığı ilə 16-17 noyabr 2020-ci il tarixdə keçirilmiş Din və etiqad azadlığının irəlilədilməsi üzrə üçüncü nazirlər konfransında Dövlət Komitəsinin sədri bir daha işğal zamanı ermənilər tərəfindən törədilmiş vandalizm aktlarından danışıb.

Hesabat ili ərzində Qafqaz Albaniyasının işğaldan azad olunmuş ərazilərdəki irsinin təbliği ilə bağlı materiallar, erməni vəhşiliyi və vandalizmini əks etdirən videoçarxlar, məscidlərimizin dağıdılması ilə əlaqədar məlumatlar xarici dillərdə yayılıb.

Şöbə müdiri bildirib ki, düşmənə qarşı aparılan informasiya müharibəsində, eləcə də sonrakı dövr ərzində sosial şəbəkə hesablarından mütəmadi olaraq Azərbaycan həqiqətləri, xüsusilə ölkəmizin multikulturalizm, tolerantlıq ənənələri üzərində formalaşmış dövlət-din siyasəti ilə bağlı məlumatlar ermənilərin xüsusi aktivlik nümayiş etdirdiyi səhifələrdə onların saxtakarlıqları faktlarla ifşa edilərək yayımlanıb.

Daha sonra Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov 2021-ci ilin fəaliyyət planı barədə məruzə edib, gələcək hədəflər, problem və perspektivlər geniş müzakirə edilib, kollegiyanın gündəliyində olan məsələlər və İş Planı ilə bağlı qərarlar qəbul edilib.

## Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə Azərbaycanda 650 min ağacın əkilməsi aksiyası İspaniyada mükafata layiq görülüb

*"LG Electronics" şirkətinin İspaniya üzrə baş ofisinin Madrid şəhərində yerləşən mənzil-qərargahında ətraf mühitin qorunmasına töhfə vermiş ölkələrin mükafatlandırılması mərasimi keçirilib.*



AZƏRTAC xəbər verir ki, "LG Electronics" şirkətinin İspaniya üzrə baş ofisi Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə 2019-cu ildə Azərbaycanda elan olunmuş "Nəsimi ili" çərçivəsində bir gündə 650 min ağacın əkilməsi aksiyasını yüksək qiymətləndirərək buna görə ölkəmizi mükafata layiq görüb. Təşkilatçılar Azərbaycan tərəfindən planetimizin yaşıllaşdırılmasına və karbon-dioksid qazının həcminin azaldılmasına verilən töhfəni təqdir ediblər.

Sözügedən mükafatı ölkəmiz adından qəbul edən səfir A.Məhərrəmov mükafata görə "LG Electronics" şirkətinin İspaniya üzrə baş ofisinin prezidenti Xayme de Xaraisə təşəkkür edib. O, respublikamızda ətraf mühitin, fauna və flora ehtiyatlarının qorunmasının prioritet istiqamətlərdən biri olduğunu qeyd edib. Tədbirin təşkilatçılarına və iştirakçılara Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə ölkəmizdə bu sahədə həyata keçirilən layihə və aksiyalar barədə ətraflı məlumat verilib. Bu nəcib aksiyaların qlobal iqlim dəyişikliyinin təsirlərinin azaldılmasına, ölkəmizdə, eyni zamanda dünyada yaşıllığın artmasına verdiyi əhəmiyyətli töhfədən bəhs edilib.

Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu tərəfindən hələ 2007-ci ildən etibarən ölkəmizdə ətraf mühitin mühafizəsi məqsədilə "Hərəmiz bir ağac əkək!" aksiyasının həyata keçirilməyə başlandığı qeyd olunaraq sözügedən layihə çərçivəsində ölkə ərazisində bir milyondan çox yeni ağacın əkildiyi diqqətə çatdırılıb.

Respublikamızda ətraf mühitin qorunması ilə bağlı geniş məlumatlandırma kampaniyası aparan, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə 2011-ci ildə fəaliyyətə başlamış IDEA (Ətraf Mühitin Mühafizəsi naminə Beynəlxalq Dialoq) İctimai Birliyinin ölkəmizin yaşıllaşdırılmasında əhəmiyyətli rolundan bəhs olunaraq IDEA-nın BMT-nin Ətraf Mühit Proqramı (UNEP) ilə birlikdə "Yaşıl həftə" təşəbbüsünün uğurla həyata keçirildiyi, IDEA tərəfindən müxtəlif ölkələrdən olan gənc ekoloqların şəbəkələşməsinin təmin edildiyi diqqətə çatdırılıb.

Tədbir zamanı Çili və Çex Respublikası da ətraf mühitin qorunmasına verdikləri töhfəyə görə müvafiq mükafata layiq görülüblər.

## Türkiyəli psixoterapevtlər vətəndaşlarımızın psixoloji reabilitasiyasına başlayıblar

*Fövqəladə Hallar Nazirliyinin (FHN) dəvəti ilə Türkiyədən gəlmiş peşəkar klinik-psixoloq və psixoterapevtlər Vətən müharibəsi nəticəsində mənəvi-psixoloji problemlər yaşayan vətəndaşların psixoloji reabilitasiyasına başlayıblar.*



AZƏRTAC xəbər verir ki, yanvarın 22-dən etibarən FHN-in 112 - qaynar telefon xətti vasitəsilə mütəxəssislərin qəbuluna yazılmış 100-ə yaxın Vətən müharibəsi iştirakçısına, qaziyə, şəhid ailəsi üzvünə, erməni terrorundan zərər görmüş insanlara psixoterapevtik yardım göstərilib.

Xatırladaq ki, ödənişsiz həyata keçirilən seanslarda iştirak etmək üçün FHN-in 112 - qaynar telefon xətti ilə əlaqə saxlamaq lazımdır.

Nazirliyin Tibbi və psixoloji yardımın təşkili şöbəsinin rəisi, tibb xidməti mayoru Xanım Sofiyeva yanvarın 28-də jurnalistlərə müsahibəsində məlumat verib ki, Vətən müharibəsi iştirakçılarının, qazilərin, şəhid ailələrinin, erməni terrorundan zərər görmüş insanların psixoloji reabilitasiyası məqsədilə FHN-in xətti ilə Türkiyədən dəvət olunan 20 nəfər peşəkar klinik-psixoloq və psixoterapevt yanvarın 22-dən etibarən FHN-in 112 - qaynar telefon xəttinə zəng edən və qeydiyyatdan keçən vətəndaşlarımızın qəbulu həyata keçirilir. Bu günədək artıq 100-ə yaxın vətəndaş qəbul edilib. Respublikanın istənilən yerindən, o cümlədən Bakı, Gəncə, Sumqayıt şəhərlərindən və Qobustan, Tərtər, Ağdam, Bərdə, Siyəzən, Quba, Qusar rayonlarından vətəndaşlarımızın müraciətləri olub.

X.Sofiyeva bildirib ki, Vətən müharibəsi iştirakçıları keçirdikləri hisslərə, davranışlara görə narahat olmamalıdırlar və bunu gizlətməyə ehtiyac yoxdur. Onlar FHN-in 112 - qaynar telefon xəttinə müraciət edə bilərlər. Biz türkiyəli mütəxəssislərlə birgə onlara ödənişsiz yardım etməyə hazırıq.

Müraciət edənlərin problemləri ilə bağlı danışan şöbə rəisi diqqətə çatdırıb ki, onları adətən müharibə zamanı döyüş meydanlarında keçirdikləri travmaları təkrar yaşamaları və xatirələri narahat edir. Bu insanların əksəriyyətində yuxu pozuntuları, qarabasmalar olur. Həmin şəxslərin sinirləri oyanıq olur və ən adi qıcıqlara belə həddindən artıq reaksiya verirlər. Onlar aqressiv davranış göstərirlər və bu, depressiyaya meyillilik yaradır, həmin şəxslər gələcəklə bağlı plan qura bilmirlər. Buna görə onların bəzilərində intihar fikirləri oyanır. Belə hallarda vaxtında və düzgün qaydada mütəxəssis müdaxiləsinə ehtiyac yaranır. Ona görə keçirdiyimiz tədbirin əsas mahiyyəti ondan ibarətdir ki, həmin travmaların dərinləşməsinə icazə verməyək. Bunun üçün vaxtında mütəxəssislərə müraciət etmək vacibdir.

"Qırx dörd günlük müharibə zamanı onların döyüş meydanlarında gördükləri qeyri-normal və faciəvi faktlar idi. Odur ki, onların göstərdikləri reaksiyalar tam normaldır. Bu baxımdan, müharibə ilə əlaqəsi olan istənilən Azərbaycan vətəndaşı həftənin bütün günlərində 24 saat ərzində tam ödənişsiz şəkildə FHN-in 112 - qaynar telefon xəttinə zəng edərək qeydiyyatdan keçə bilərlər. Türkiyəli mütəxəssislər onlara könüllü olaraq yardım etmək üçün Azərbaycana gəliblər. Bu prosesə onlarla yanaşı, azərbaycanlı mütəxəssislərimiz də cəlb olunublar. Biz psixoloji yardım istəyən istənilən vətəndaşa kömək göstərməyə hazırıq" deyə X.Sofiyeva vurğulayıb.

FHN-in dəvəti ilə ölkəmizə gələn Türkiyədə müharibə qazisi olan Semih Medeni jurnalistlərə müsahibəsində deyib ki, belə döyüş hadisələrini yaşayan biri kimi qardaşlarımıza yardım etmək üçün Azərbaycana gəlmişik. Bu layihənin nəticələrinin uğurlu olması üçün əlimizdən gələni edirik. İnşallah, hər kəsi - təşkilatçıları, vasitəçiləri məmnun edəcək nəticə hasil olacaq. Burada müxtəlif üsullarla mənəvi-psixoloji problemləri olan insanların reabilitasiya məsələləri ilə məşğul oluruq. Psixoloji problemlərlə bağlı insanlar əsasən yuxusuzluq, depressiya, xroniki yorğunluq, qorxu ilə bağlı şikayətlərlə müraciət edir və gələcəklə bağlı narahatlıq keçirirlər. Çünki insanlar həyatda yaşamağa davam edirlər və bu müddətdə sadalanan problemlərlə mübarizə aparırlar. Bu baxımdan burada göstərilən psixoloji dəstək vacibdir.

Bursadan gəldiyini bildirən türkiyəli psixoloq-mütəxəssis Zeynəb Çengiz Vətən müharibəsində Azərbaycanın Qələbə qazanması münasibətilə xalqımızı və Prezident İlham Əliyevi təbrik edib. O qeyd edib ki, Azərbaycanın işğal altındakı torpaqlarını azad etməsindən və Zəfər qazanmasından son dərəcə məmnunuq. Müharibədən sonra müəyyən mənəvi-psixoloji problemləri yaşayan vətəndaşların psixoterapevtik müalicəsini təşkil etmək üçün könüllü olaraq Bakıya gəlmişik. Hər gün bir neçə nəfəri qəbul edirəm. Psixoloji problemlərlə bağlı müraciət edənlərdə xəstəliyin əlamətləri əsasən yuxusuzluq, depressiya, təşvişlə bağlıdır və gələcəklə bağlı narahatlıqlardır. Bu psixoloji reabilitasiya prosedurlarından sonra isə insanlar özlərini daha yaxşı və xoşbəxt hiss edirlər.

Vətən müharibəsi iştirakçısı Adil Baladadaşov jurnalistlərə müsahibəsində döyüşlərdə ayağından yaralandığını vurğulayıb: "Müharibədən sonra məndə gərginlik, sıxıntı və yuxusuzluq halları olurdu, əsəblərim korlanırdı. Gecələr yata bilmirdim. Türkiyədən gələn həkimlərdən psixoloji dəstək almaq üçün Fövqəladə Hallar Nazirliyinin 112 - qaynar telefon xəttinə zəng edərək müraciət etdim. Psixoloqlar sayəsində artıq rahat yatıram, əsəblərim sakitləşməyə başlayıb. Onlardan razıyam".

Psixoloji dəstək üçün müraciət edən Ruhiyyə Mahmudova qeyd edib: "Ermənistan silahlı qüvvələri Beyləqanda evimizə raket atdıqları üçün və bu hadisəni yaşadığım üçün əsəblərim gərilmişdi. Gecələr qorxudan yata bilmirdim. Uşağımda da problemlər vardı. O, həmin hadisələri xatırlayır, əvvəllər ona hər söz təsir edirdi və sinirləri oyaq olduğu üçün qıcıqlanırdı. Artıq ikinci seansdır ki, həkimlərin qəbuluna gəlirik. Həkimlər deyir ki, əsəbləri tədricən sakitləşəcək. Belə psixoloji problemləri olan hər kəsə psixoloqlara müraciət etməyi tövsiyə edirəm".

## İlin uğurlu yekunları

# Azərbaycanı dünyada şərəfləndirən qələbə

## Müzəffər Ali Baş Komandan İlham Əliyev respublikamızın ərazi bütövlüyünü bərpa etməklə öz tarixi missiyasını uğurla yerinə yetirdi

### Ermənistanın hərbi potensialı darmadağın edildi

44 gün davam edən müharibədə Azərbaycan Ordusu bütün dünyaya müasir döyüşlərin aparılmasının nümunəsini göstərdi. Bu da ondan irəli gəldi ki, ötən 17 ildə İlham Əliyevin həyata keçirdiyi ordu quruculuğu Azərbaycan Silahlı Qüvvələrini ən müasir silahlarla təchiz olunmuş hərbi gücə çevirib. Azərbaycan həmişə danışıqlar prosesinə sadiq olsa da, günlərin birində güc yolu ilə torpaqlarını işğaldan azad edə biləcəyini də gizlətməyib. Buna uyğun olaraq Azərbaycan Ordusunun işğalçı Ermənistandan fərqli olaraq tamamilə müasir döyüş imkanlarına malik bir hərbi gücə çevrilməsi istiqamətində davamlı iş aparılıb. İndi XX əsr deyil, hətta texniki inkişafın elə bir mərhələsinə qədəm qoymuşuq ki, on il əvvəl meydana çıxan yeniliklər də bu günümüzlə ayaqlaşmır. Bu baxımdan İlham Əliyev ordumuzu ən müasir hərbi texnologiyalarla zənginləşdirdi. Təsadüfi deyil ki, Azərbaycanın silahlanmasında yer alan müasir döyüş vasitələri inkişaf etmiş dövlətlərin belə arsenalında yoxdu. Üstəlik, İlham Əliyev Azərbaycanın hərbi-sənaye kompleksini də formalaşdırıb və artıq neçə illərdir ki, müəyyən hərbi təyinatlı məhsullarla bağlı xarici asılılıq aradan qaldırılıb.

Yüksək peşəkarlıq və döyüş əzmi göstərən ordumuz, əsgərlərimiz bütün cəbhələrdə sürətlə irəlilədilər. Cəbhənin elə bir xətti olmadı ki, orda düşmənə sarsıdıcı zərbə vurulmasın. Azərbaycan Ordusu müasir döyüşlərin necə aparılmasının nümunəsini yaratdı. Məsələn, tanınmış rusiyalı hərbi ekspert, "Nasionalnaya oborona" jurnalının baş redaktoru İqor Korotçenko həmin günlərdə yazırdı ki, Azərbaycan Ordusu işğal edilmiş ərazilərinin azad edilməsi üzrə əks-hücum əməliyyatlarında XXI əsrdə müharibə aparılması nümunəsi göstərdi. "Mən əminliklə deyə bilərəm ki, müasir silahlardan - pilotsuz uçuş aparatlarından, hava patrulu xidməti üçün silah-sursatdan, hədəfləri dəf etmək üçün yüksək dəqiqlikli vasitələrdən istifadə olunmaqla aparılan döyüş əməliyyatlarının miqyası dünyanın aparıcı baş qərargahları tərəfindən çox diqqətlə öyrənilir. Dünya hələ belə bir vəziyyətlə rastlaşmamışdı ki, bir ordu digər ordu ilə vuruşarkən bu sayda yüksək dəqiqlikli silahlardan istifadə edilsin. Zərbə uçuş aparatlarından istifadənin miqyasına və intensivliyinə görə bu, dünya tarixində ilk belə hadisədir. Nə ABŞ, nə Rusiya, nə İsrail, nə də hansısa başqa ölkə bu miqyasda pilotsuz zərbə uçuş aparatlarından istifadə etməyib. Pilotsuz uçuş aparatları bu cür münaqişələrdə özünün mübahisəsiz üstünlüyünü sübut edib. Buraya Azərbaycan Ordusu tərəfindən düşmənin canlı qüvvəsinin və hava hücumundan müdafiə vasitələrinin məhv edilməsi və daha sonra zirehli texnikanın, yüksək dərəcədə müdafiə olunan hədəflərin və canlı qüvvənin məhv edilməsi üçün pilotsuz uçuş aparatlarından geniş istifadə taktikasını da əlavə etmək lazımdır".

O qeyd edib ki, yüksək dəqiqlikli silahdan istifadə mülki əhali arasında itkilərin sayını azaldır. "Bu nöqteyi-nəzərdən Azərbaycan həm hərbi uğur qazanıb, həm də Dağlıq Qarabağda yaşayan mülki vətəndaşların həyatını xilas edib. Fikrimcə, döyüş əməliyyatlarının aparılması taktikası sahəsində əhəmiyyətli dəyişikliklər olacaq. Sözsüz ki, Azərbaycan Ordusunun təcrübəsi ətraflı şəkildə öyrəniləcək" - deyə İqor Korotçenko bildirib.

Azərbaycan Ordusunun Dağlıq Qarabağda apardğı döyüşlərin müasir hərb tarixinə yazılacağı dəqiqdir. Bu döyüşlərdə ordumuzun düşmənə qarşı müxtəlif tipli çoxsaylı dronlar tətbiq edərək onun canlı qüvvəsini və texnikasını məhv etməsi yeni müharibə taktikası kimi hərbi mərkəzlərdə təhlil edilir. Ən mühümü odur ki, Azərbaycan Ordusunun keçirdiyi hərbi əməliyyatlar döyüş əməliyyatlarının aparılması taktikasını dəyişir. Belə ki, hərbi əməliyyatlarla bağlı indiyə qədər mövcud olmuş ənənələr yeniləri ilə əvəz olunur, o cümlədən bir sıra hərbi texnikalar tədricən effektivliyini itirir.

Təsadüfi deyil ki, Azərbaycanın İkinci Qarabağ müharibəsində apardığı döyüş əməliyyatları dünyanın ən güclü orduları tərəfindən ciddi təhlil edilir və öyrənilir.

44 günlük müharibədə Azərbaycan Ermənistanın bütün hərbi potensialını darmadağın etdi və ya qənimət götürdü. Bu barədə Prezident İlham Əliyev xalqa müraciətlərində və çıxışlarında ətraflı məlumat verdi. Bir daha düşmənin məhv olunmuş hərbi texnikalarına nəzər yetirək: tank əleyhinə vasitələr - 53 ədəd, "Smerç" - dörd ədəd, "Qrad" - 97 ədəd, "Uraqan" - 2, "YARS" - 1, TOS odsaçan - 1, "S-300" zenit-raket kompleksləri - 7 atıcı qurğusu, bir "S-300" radiolokatoru və iki "S-300" aşkaretmə stansiyası məhv edildi. "Oborona" radiolokasiya stansiyası - 1 ədəd, "TOR" zenit-raket kompleksi - 5 ədəd, "Osa" zenit-raket kompleksi - 40 ədəd, "KUB" zenit-raket kompleksi - 4 ədəd, "KRUQ" zenit-raket kompleksi - 1 ədəd, zastava - 14 ədəd, "S-125" zenit-raket kompleksi - 2 ədəd, pilotsuz uçuş aparatları - 22 ədəd, "Elbrus" əməliyyat-taktiki raket kompleksi - 2, ballistik raket - 1 ədəd, "Toçka-U" raket kompleksi - 1 ədəd, radioelektron mübarizə vasitələri - 5 ədəd, "R-142" komanda qərargah maşını - 2 ədəd, "Nebo-M" radiolokasiya stansiyası - 1 ədəd, müxtəlif radiolokasiya stansiyaları - 7 ədəd, "Reppelent" radio-texniki maneə vasitəsi - 4 ədəd.

Düşmənin məhv edilmiş və qənimət götürülmüş texnikalarına gəldikdə isə özüyeriyən artilleriya qurğuları "Akasiya" və "Qvozdika" - 28-i məhv edilib, 5-i qənimət götürülüb. Müxtəlif çaplı toplar - 315-i məhv edilib, 37-si hərbi qənimət kimi götürülüb. Minaatanlar - 63-ü məhv edilib, 62-si qənimət götürülüb. Xüsusi avtomobillər - 10-u məhv edilib, 93-ü qənimət götürülüb. Qumbaraatan - 178-i qənimət götürülüb. Traktor - 10, "Şilka" zenit qurğusu - 5 ədəd qənimət götürülüb. Atıcı silahlar - 1380 atıcı silah qənimət götürülüb. 7 komanda məntəqəsi, 11 sursat anbarı dağıdılıb. Tank - 287-si məhv edilib, 79-u qənimət götürülüb, toplam 366 tank. Piyadaların döyüş maşını - 69-u məhv edilib, 47-si qənimət götürülüb. "Su-25" təyyarəsi - 5-i məhv edilib. Yük avtomobilləri - 252-si məhv edilib, 270-i hərbi qənimət kimi götürülüb.

*(Əvvəli qəzetin 27, 28 yanvar tarixli nömrələrində)*

### İlham Əliyev informasiya müharibəsində də Ermənistana zərbə vurdu

Məlum olduğu kimi, işğalçı dövlət uzun illərdir erməni lobbisinin və xarici havadarlarının köməyi ilə münaqişə haqqında dünyada informasiya vakuumu yaratmağa, öz yalan, riyakar və ikiüzlü siyasətini beynəlxalq ictimaiyyətə sırımağa çalışır. Müəyyən dönəmlərdə niyyətlərinə çatsalar da, artıq zaman dəyişib. Xüsusən 2016-cı ilin Aprel döyüşlərindən sonra problemlə bağlı beynəlxalq reaksiyalar göstərdi ki, dünya artıq erməni yalanlarına inanmaq istəmir.

Xatırlayırıq ki, hələ Aprel döyüşləri, eləcə də Ermənistanın Tovuz istiqamətində təxribatı zamanı heç bir dövlət və təşkilat açıq şəkildə işğalçını müdafiə edən fikir səsləndirməmişdi. Çünki onların böyük əksəriyyəti ikili standartlardan çıxış etsə belə kimin işğalçı olduğunu, kimin isə işğala məruz qaldığını yaxşı bilirdi və belə bir vəziyyətdə Ermənistana dəstəyin ifadə edilməsi ən böyük siyasi riyakarlıq olardı. O zaman Yerevanın ən yaxın müttəfiqləri belə açıq şəkildə onu müdafiə etmədilər.

Azərbaycan informasiya blokadasını nəinki çoxdan sındırıb, həm də Prezident İlham Əliyevin hücum diplomatiyasının nəticəsində erməni yalanlarına böyük zərbə vurub. Bu günkü reallıqları, tarixi həqiqətləri düzgün dəyərləndirən ayrı-ayrı ölkələrin siyasi mərkəzləri uzun illərdir dünyanı aldadan ermənilərin əlində artıq alət olmaq istəmirlər. Xatırladaq ki, hələ Tovuz döyüşləri zamanı ABŞ Konqresində Azərbaycan əleyhinə daşnaklar tərəfindən təşviq olunan qanunvericilik təkliflərinin qarşısının qətiyyətlə alınması və ilk dəfə olaraq Ermənistan əleyhinə düzəlişlərin qəbul edilməsi də dünya erməniliyinin saxta təbliğatına böyük zərbə vurmuşdu.

44 günlük İkinci Qarabağ müharibəsi dövründə Prezident İlham Əliyev 30-a yaxın xarici KİV-ə müsahibə verdi. Bu müsahibələrdə dövlət başçısı Azərbaycanın haqlı mövqeyini, müharibənin başlanma səbəblərini sistemli şəkildə, siyasi uzaqgörənliklə auditoriyanın diqqətinə çatdırdı. Məhz bu müsahibələr Azərbaycanın informasiya savaşında da qələbəsini təmin etdi.

Prezident İlham Əliyev Ermənistanın mövqeyini müdafiə edən KİV-in də müraciətinə təmkinlə yanaşaraq onların əməkdaşlarının suallarını cavablandırdı. Bu zaman dövlət başçısı təmkinlə, uzaqgörənliklə, siyasi peşəkarlıqla Azərbaycanın haqlı mövqeyini elə əsaslandırdı ki, ondan sonra erməni lobbisinin maraqlarına xidmət edən jurnalistin əlavə sual verməyə gücü çatmadı. Məsələn, "BBC News" televiziyasının müxbiri İlham Əliyevin şərtlərini ultimatum kimi şərh edərək sual verir: *"Siz bir ultimatum verirsiniz, Siz deyirsiniz ki, onlar bütün bu əraziləri qaytarmağa razılaşmalıdır və yalnız sonra danışıqlar ola bilər. Bu danışıqlar üçün böyük bir ilkin şərtdir".* Prezident İlham Əliyev danışıqlar prosesindən xəbəri olmayan jurnalistin sualını təmkinlə cavablayır: "Xeyr, heç də belə deyil. Çünki mənim dediyim əsas prinsiplərə əsaslanır və əsas prinsiplərdə Dağlıq Qarabağın ətrafındakı ərazilərin boşaldılması çox aydın qeyd olunub. Bu, Ermənistan üçün çox aydın mesajdır. Əfsuslar olsun ki, Ermənistan Minsk qrupunun həmsədrləri və əvvəlki Ermənistan rəhbərliyi tərəfindən işlənib hazırlanmış əsas prinsiplərlə razılaşmadı. Bu əsas prinsiplərdə deyilir ki, onlar birinci mərhələdə işğal olunmuş 5 rayonu boşaltmalıdırlar, ikinci mərhələdə isə 2 rayonu boşaltmalıdırlar. Lakin beş rayondan dördü artıq azad edilib. Əgər onlar bunu etsələr, Ağdamın bir hissəsini, Kəlbəcəri və Laçını nə vaxt boşaldacaqlarını açıq bəyan etsələr, biz dayanarıq".

Növbəti bir sualda jurnalist sanki Ermənistanın nümayəndəsi kimi danışır: "Lakin Siz Dağlıq Qarabağ üzərində nəzarəti güc yolu ilə ələ keçirsəniz, Sizin də eynilə eyni şeyi törədəcəyinizlə bağlı qorxular var. Ermənistan öz insanlarının etnik təmizləməyə məruz qalacağından çox ciddi qorxduğunu ifadə etmişdir". O cümlədən "Dağlıq Qarabağ üzərində nəzarəti ələ keçirsəniz, həqiqətən də, bir erməninin Dağlıq Qarabağda qalacağını və Azərbaycan qanunları ilə yaşayacağını gözləyirsiniz?", "Ermənilər də, əlbəttə, iddia edirlər ki, onlar da qovulublar, onlar da illərlə qətliamların qurbanları olublar", "Burada, Azərbaycanda yaşayan ermənilərlə bağlı. Bizə verilən məlumata görə, onların çoxu qorxu içində yaşayır, ermənilər kimi açıq tanınmağı istəmədiklərinə görə soyadlarını dəyişiblər. Dağlıq Qarabağdakı ermənilər özlərinin təhlükəsiz olacaqlarına necə əmin ola bilərlər ki?" kimi suallar isə əslində beynəlxalq ictimaiyyətdə Azərbaycan dövlətinin imicinə qara yaxmaq məqsədi güdürdü.

"Prezident Əliyev, dinə gəldikdə, Ermənistanda kilsəyə hücum olub" sualı isə əvvəldən təlimatlandırılan jurnalistin müharibənin harda getməsindən bixəbər olduğunu göstərirdi.

O cümlədən Almaniyanın ARD televiziya kanalının müxbiri də jurnalistika dəyərlərini bir kənara qoyaraq aldığı sifarişləri yerinə yetirirdi. Jurnalistin Azərbaycanı atəş açmaqda, döyüşlərdə kassetli bombalardan istifadə etməkdə, xaricdən muzdlu döyüşçülər gətirməkdə ittiham etməsi, döyüşlərdə Türkiyə və İsrail dronlarından istifadəni qısqanclıqla qabartması əslində sağlam jurnalistika dəyərlərindən uzaq idi.

"Nəyə görə Qarabağ Azərbaycan üçün belə önəmlidir? Orada resurslar var, yoxsa bu, bir rəmzi məna daşıyır?" sualına İlham Əliyevin cavabından sonra alman jurnalist mövzunu dəyişməli olur: "Elzas və Lataringe sizin üçün önəmlidir? Bavariya sizin üçün önəmlidir? Yaxud Reyn-Vestfaliya? Bu, bizim torpaqdır, beynəlxalq səviyyədə tanınan bizim ərazimizdir. Bu, resurslar məsələsi deyil. Əsas resurslar burada, Bakıdadır. Bu, ədalət məsələsidir, bu, milli qürur məsələsidir və bu, beynəlxalq hüquq məsələsidir. Beynəlxalq hüquq və bütün beynəlxalq ictimaiyyət Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Biz ədaləti bərpa edirik və biz BMT Təhlükəsizlik Şurasının 27 il ərzində kağız üzərində qalan qətnamələrini icra edirik".

Eyni vəziyyəti "Sky News" televiziya kanalına müsahibədə də gördük. Sanki bu jurnalistlərin hamısı bir mərkəzdən idarə olunaraq təlimatlandırılmışdı. Onların sualları da məzmunca bir-birini tamamlayırdı. Hər şeydən əvvəl jurnalistlər Azərbaycanın müharibəni nə qədər davam etdirəcəyini soruşur, sonra isə respublikamızı beynəlxalq hüquqları pozmaqda, kilsəni atəşə tutmaqda ittiham edirdilər.

İlham Əliyev bu sualların hər birinə son dərəcə təmkinlə, soyuqqanlılıqla cavab verdi, məsələnin mahiyyətini səbrlə izah etdi, zəruri sənədlərə və tarixi faktlara istinadən öz mövqeyini və dediklərinin doğruluğunu, ədalətə söykəndiyini sübuta yetirdi.

Bununla da Prezident İlham Əliyev erməni təbliğatına hətta düşmənin maraqlarını müdafiə edən informasiya məkanlarında tutarlı zərbə vurdu. Ermənistanın erməni lobbisi və xaricdəki havadarlarına əsaslanaraq yenidən özü üçün münbit informasiya mühiti yaratmaq xülyası iflasa uğradı.

### Sülhməramlılar yalnız razılaşmaların yerinə yetirilməsinə dəstək göstərməlidirlər

10 noyabr bəyanatına əsasən Dağlıq Qarabağda təmas xətti və Laçın dəhlizi boyu Rusiya Federasiyasının hərbi qulluqçularından ibarət sülhməramlı kontingent yerləşdirilib. Rusiya sülhməramlı kontingentinin qalma müddəti 5 ildir və müddətin bitməsinə 6 ay qalmış hazırkı müddəanın tətbiqinə xitam verilməsi niyyətini tərəflərdən hər hansı biri bəyan etməzsə, avtomatik olaraq növbəti 5 illik müddətə uzadılır.

Dünyada sülhməramlı hərbi qüvvələrin formalaşması ilk dəfə 1948-ci ilə təsadüf edir. Həmin il yaradılmış BMT sülhməramlılarının əsas vəzifəsi dünyanın müxtəlif qaynar nöqtələrində baş verən münaqişələrin qarşısını almaq idi. BMT mandatlı bu qüvvələr münaqişə tərəfləri ilə razılaşdırılmış qaydada münaqişə bölgəsində sülhü təmin etmək məqsədilə fəaliyyət göstərirlər. Hazırda sülhməramlı qüvvələr Kosovo, Əfqanıstan, İraq, Haiti, Kipr, Livan, Suriya, Cənubi və Şimali Sudan, Mali, Kot-divuar və digər münaqişə bölgələrində müvafiq missiyanı yerinə yetirirlər.

Ümumilikdə BMT mandatlı 13 sülhməramlı missiya mövcuddur, bundan başqa, BMT mandatı altında fəaliyyət göstərməyən daha 7 sülhməramlı missiya vardır. Şəraitdən asılı olaraq sülhməramlıların missiyası fərqlənir. Lakin bütün sülhməramlı missiyalar öz fəaliyyətində beynəlxalq hüquqa və BMT-nin baza prinsiplərinə əsaslanırlar, münaqişə bölgələrində sülhün və təhlükəsizliyin təmin edilməsinə dəstək verirlər.

Missiyalar bir-birindən fərqlənsə də, hər bir əməliyyata aid olan ümumi cəhətlər mövcuddur. Belə ki, sülhməramlılar münaqişə tərəflərinin hər ikisinin razılığı əsasında müvafiq bölgəyə yerləşdirilirlər və onlar qərəzsiz və neytral olmalıdırlar. Sülhməramlılar yalnız mandatlarının hüdudları çərçivəsində və özünümüdafiə məqsədilə silah istifadə edə bilərlər. Əldə olunmuş razılaşmaların yerinə yetirilməsinə dəstək göstərilməsi missiyanın başlıca vəzifəsidir. Sülhməramlılar çətinliklərin aradan qaldırılmasına və tərəflər arasında əlaqə üçün yerli qarşılıqlı işlək mexanizmlərinin yaradılmasına dəstək verirlər.

Hazırda Dağlıq Qarabağda sülhməramlıların yerləşdirilməsi Azərbaycan ictimaiyyətində də geniş müzakirə olunur. Ümumi mənzərə onu deməyə əsas verir ki, bəzi hallarda sülhməramlı missiyanın mahiyyəti düzgün başa düşülmür və ya ümumiyyətlə təhrif olunur.

BMT sülhməramlıları olmayan missiyaların fəaliyyəti üçün müəyyənləşdirilən hüquqi baza və onların həyata keçirdiyi sülhməramlı əməliyyatlar beynəlxalq hüquqa əsaslanır. Hazırda Dağlıq Qarabağa Rusiya sülhməramlılarının yerləşdirilməsinin hüquqi bazası Azərbaycan, Rusiya prezidentləri və Ermənistanın baş naziri arasında imzalanmış birgə bəyanatdır. Sülhməramlı missiya Dağlıq Qarabağa dəqiq və konkret məqsədlə yerləşdirilib, onların məqsədi dövlət başçılarının birgə bəyanatında nəzərdə tutulmuş vəzifələrin icrasına dəstək göstərməkdir.

10 noyabr bəyanatının imzalanması ilə Azərbaycan Ermənistanla sərhədlərini uğurla bərpa edir və biz bu prosesdə Rusiyanın prinsipial mövqeyini görməkdəyik. Məlum olduğu kimi, sovet hakimiyyəti illərində Azərbaycanla Ermənistan arasında sərhəd xətləri yox idi və bir çox ərazilərdə Ermənistan Azərbaycan torpaqlarını öz ərazisi kimi istifadə edirdi. O cümlədən Birinci Qarabağ müharibəsi zamanı Qubadlı və Zəngilan istiqamətində Ermənistan qanunsuz məskunlaşma aparmışdı. 10 noyabr bəyanatından sonra isə Rusiyanın da iştirakı ilə Ermənistanın bu qanunsuzluqlarına son qoyulur, tarixi Azərbaycan torpaqları geri qaytarılır.

Bir məsələni də unutmayaq ki, döyüş günlərində Ermənistan öz ərazisindən Azərbaycan Ordusunun Zəngilan və Qubadlı rayonları ərazisindəki bölmələrini aramsız atəşə tuturdu. Həmin vaxt Ermənistanın məqsədi həm də təxribat yaratmaqla üçüncü tərəfi müharibəyə cəlb etmək idi. 10 noyabrda kapitulyasiyaya məcbur edilən Ermənistan bu niyyətinə çata bilmədi, həm də Azərbaycan Ermənistanla dövlət sərhədlərini tam bərpa etdi.

Düzdür, bəzən Dağlıq Qarabağda 10 noyabr bəyanatının ruhuna uyğun olmayan hadisələr baş verir. Məsələn, Fransadan nümayəndə heyətinin, Ermənistanın xarici işlər nazirinin Qarabağa gəlişi bəyanatla ziddiyyət təşkil edir. 2020-ci ilin yekunlarına həsr olunmuş videoformatda müşavirədə buna münasibət bildirən Prezident İlham Əliyev 10 noyabr bəyanatında hətta humanitar missiyanın da sülhməramlı qüvvələrin funksiyası kimi təsbit edilmədiyini dedi: *"Sülhməramlı qüvvələr. Onların orada funksiyası var. Noyabrın 10-da bu funksiya təsbit edildi. Baxmayaraq ki, indi onlar orada humanitar işlərlə məşğuldurlar, halbuki noyabrın 10-da imzalanmış Bəyanatda bu funksiya təsbit edilməyib, biz buna, necə deyərlər, göz yumuruq. Nə üçün? Çünki başa düşürük ki, orada insanlar yaşayır, başa düşürük ki, indi qış gəlib, hava soyuqdur. Orada müəyyən işlər görülməlidir ki, bu qış orada yaşayan ermənilər üçün problem yaratmasın. Ona görə biz imkan verdik. İndi yüklərin böyük hissəsi oraya Azərbaycan ərazisindən gedir. Biz imkan verdik. Bərdəyə qədər dəmir yolu ilə gedir. Ondan sonra maşınlarla Dağlıq Qarabağa aparılır. Əlbəttə, biz imkan verməyə də bilərdik".*

Dağlıq Qarabağda Azərbaycanın maraqlarına cavab verməyən bütün addımlara sözsüz ki, son veriləcək. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, unutmasınlar ki, "Dəmir yumruq" yerindədir və əgər təxribat xarakterli addımlar atılacaqsa, Ermənistan daha da peşman olacaq.

Nəinki müharibənin davam etdiyi 44 gün ərzində, ötən 30 ildə yalanlarla idarə olunan Ermənistan tarixinin ən acınacaqlı, ən utancverici dövrünü yaşayır. Bu ölkənin vətəndaşları işğal siyasətinin qurbanına çevriliblər və üzləşdikləri əzaba və rüsvayçılığa boyun əyməkdən başqa yolları yoxdur. Xəstə erməni təfəkkürünün, özgə torpaqlarına göz dikməyin sonu başqa cür ola da bilməzdi.

Prezident İlham Əliyevin yürütdüyü siyasətin nəticəsi olaraq Azərbaycan regionun lider dövləti idi. Bu qələbə isə respublikamızın nəinki Cənubi Qafqazda, həmçinin bütün dünyada mövqelərini daha da möhkəmləndirdi, nüfuzunu yüksəltdi. İlham Əliyevin rəhbərliyi ilə tarixinin ən güclü dövrünü yaşayan Azərbaycan öz maraqlarını qətiyyətlə təmin etdi. Ermənistan isə bütün tarix boyu işğal siyasətinin nəticəsi olan rüsvayçılıq və məğlubiyyət damğası ilə yaşamalı olacaq.

### Qarabağın böyük iqtisadi potensialı var

İşğaldan azad olunmuş rayonlarımızın böyük iqtisadi potensialı var. Azad olunan hər bir rayonun iqtisadi imkanları çox genişdir. Onların hər birinin yeraltı və yerüstü sərvətləri tükənməzdir. Qarabağ torpaqları əlvan metal filizləri, qızıl, civə, xromit, perlit, əhəng, mərmər və digər faydalı qazıntılarla zəngindir. İndiyədək Kəlbəcərdə və Zəngilanda qızıl yataqları Ermənistan tərəfindən qanunsuz şəkildə talan olunub. Lakin artıq bu torpaqların sahibləri qayıdıb. Təbii ki, yeraltı sərvətlərimizin cinayət yolu ilə talanması ilə əlaqədar olaraq dəymiş kompensasiya hesablanacaq və Ermənistan beynəlxalq məhkəmə qarşısında cavab verməli olacaq. Qarabağın yeraltı və yerüstü sərvətləri isə bundan sonra Azərbaycan dövlətinin yüksəlişinə, xalqımızın rifahına xidmət edəcək. Yeni təbii resursları dövriyyəyə cəlb etməklə Azərbaycan bu bölgənin inkişafı, dağ-mədən sənayesinin, eləcə də metallurgiya kompleksinin yüksəlişini təmin etmək potensialına malikdir. Metallurgiyanın inkişafı isə Azərbaycanda bir sıra sənaye sahələri ilə yanaşı, həm də hərbi sənayenin inkişafını sürətləndirəcək. Bu baxımdan Qarabağın azad olunması Azərbaycan iqtisadiyyatının yüksəlişinə və diversifikasiyasına töhfə olacaq.

Onu da qeyd edim ki, işğaldan azad olunmuş ərazilər vaxtilə Azərbaycanda istehsal edilən kənd təsərrüfatı məhsullarının 35-40 faizə qədərini təmin edirdi. Qarabağ ərazisində 250 min hektardan çox məhsuldar torpaq var. Bu baxımdan bu torpaqların dirçəldilməsi Azərbaycanın iqtisadyyatına böyük töhfələr verəcək. Azərbaycan işğaldan azad olunan torpaqlarda üzümçülük, tütünçülük, pambıqçılıq, baramaçılıq, meyvə-tərəvəz, bostançılıq və heyvandarlığın inkişafı üçün böyük potensiala sahibdir. Eyni zamanda burada emal və ərzaq sənayesinin inkişafı potensialı var. Ona görə qarşıdakı illərdə işğaldan azad olunan rayonların iqtisadi fəallığının təmin olunmasından və azad olunmuş torpaqların kənd təsərrüfatına cəlb edilməsindən sonra ölkə üzrə məhsulun ümumi buraxılışı azı 2 milyard manat arta bilər.

Azərbaycan ərazilərinin işğaldan azad edilməsi həm də ölkəmizdə ərzaq təhlükəsizliyinin təmininə ciddi töhfə verəcək. Xüsusən də heyvandarlıq məhsulları ilə özünütəminetmə səviyyəsi yaxşılaşacaq. Hazırda ölkəmizdə özünütəminetmə səviyyəsi ət və ət məhsulları üzrə 82,5 faiz, süd və süd məhsulları üzrə 86,2 faizdir. Proqnozumuza görə, işğaldan azad edilən ərazilərdə təsərrüfat fəaliyyəti bərpa ediləndən sonra bu məhsullarla özümüzü təmin edə biləcəyik.

Qarşıdakı illərdə qeyri-neft sektorunun inkişafı ilə bağlı proqnozlara düzəlişlər ediləcək. Çünki Qarabağa qayıdış həm də qeyri-neft sektorumuzun daha sürətlə böyüməsinə təkan verəcək. Ərazilərin işğaldan tam azad olunmasının iqtisadi inkişafımıza təsiri çox böyük olacaq.

Qarabağ bölgəsində Azərbaycanın zəngin su ehtiyatları var. O cümlədən mineral su ehtiyatlarımızın 40 faizə qədəri işğal altındakı torpaqlardadır. Bu baxımdan torpaqlarımızın işğaldan azad edilməsi su qıtlığının olduğu indiki şəraitdə respublikamızın su təminatına da mühüm töhfə verəcək. Bu ehtiyatlardan həm içməli su, həm meliorasiya, həm də elektrik enerjisi istehsalı üçün istifadə ediləcək. Xüsusən də Kəlbəcər və Laçın rayonları şirin su ehtiyatları ilə zəngindir.

Saf havası, gözəl təbiəti olan Qarabağ tək Azərbaycanın deyil, dünyanın ən füsunkar yerlərindən biridir. Qarabağın iqtisadiyyatının dirçəlişi bu bölgədə hər şeydən əvvəl turizm üçün geniş imkanlar açır. Qarabağın kurort-rekreasiya potensialına malik olmasına baxmayaraq, Ermənistan bu potensialdan heç bir zaman tam faydalana bilməyib. Ermənistanın bu istiqamətdə həyata keçirmək istədiyi layihələrin hamısı hədər gedib. Çünki bütün dünya işğal olunmuş əraziləri Azərbaycan torpaqları kimi tanıyıb və buna görə heç vaxt turizm sənayesinin diqqətini çəkməyib. Amma indi Azərbaycan Qarabağı geri alıb və bu ərazilərin təbiəti, resursları turizmin inkişafı üçün böyük imkanlar yaradır.

### Moskva bəyanatı Azərbaycanın milli maraqlarına cavab verən sənəddir

İkinci Qarabağ müharibəsi Azərbaycanın qələbəsi ilə başa çatdı. Prezident İlham Əliyevin hər zaman çıxışlarında bəyan etdiyi kimi, Qarabağda ikinci erməni dövlətinin yaradılmasına imkan verilmədi. Azərbaycanın "Dəmir yumruğu" Ermənistanı döyüş meydanında darmadağın etdi, işğalçıya tarixboyu unudulması mümkün olmayan dərs verdi, maddi və mənəvi zərbə vurdu.

Noyabrın 10-da İlham Əliyevin şərtləri əsasında imzalanan bəyanat Ermənistanın kapitulyasiyası kimi tarixə düşdü. Moskvadakı görüşün yekunu ilə bağlı üçtərəfli bəyanat imzalandı. Yanvarın 11-də Moskvada Azərbaycan və Rusiya prezidentlərinin və Ermənistanın baş nazirinin iştirakı ilə üçtərəfli görüşdən sonra imzalanan ikinci bəyanat da Azərbaycanın milli maraqlarına cavab verən sənəd oldu. 44 günlük müharibəyə yekun vuran, dövlətlər arasında siyasi deyil, iqtisadi və regional əməkdaşlıq məsələlərini nəzərdə tutan ikinci bəyanatın qəbul olunması ilə bir daha təsdiq edildi ki, regionun gələcəyi hazırkı nəticələrin təftişi deyil, perspektivə istiqamətlənmiş məsələlərin həyata keçirilməsi ilə bağlıdır. Sənədə əsasən Naxçıvanla yeni nəqliyyat dəhlizinin yaradılması istiqamətində prioritetlər də dəqiqləşdirildi.

Beləliklə, İkinci Qarabağ müharibəsinin qalibi olan Azərbaycan Ermənistanın işğal siyasətinə son qoydu. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin müdrik və uzaqgörən siyasəti Azərbaycanı qalib etməklə dünyada və regiondakı mövqelərini tarixdə görünməmiş dərəcədə möhkəmləndirdi.

***Ziyad SƏMƏDZADƏ,***
***AMEA-nın həqiqi üzvü,***
***Milli Məclisin deputatı***

## Rusiyanın Kaluqa vilayətində Azərbaycan pavilyonu açılıb

Rusiyanın Kaluqa vilayətində yerləşən "ETNOMİR" Mədəniyyət və Tədris Parkında Azərbaycanın Rusiyadakı Ticarət Nümayəndəliyinin təşkilatçılığı ilə "Azərbaycanın Rusiya regionları ilə iqtisadi əməkdaşlığı" mövzusunda forum keçirilib. Həmin gün "ETNOMİR" parkında Azərbaycan pavilyonunun təntənəli açılış mərasimi olub.

AZƏRTAC xəbər verir ki, Azərbaycanın Rusiyadakı ticarət nümayəndəsi Ruslan Əliyev forumda çıxışında Azərbaycan ilə Rusiya regionları arasında əməkdaşlığın geniş potensiala malik olduğunu bildirib. Onun sözlərinə görə, hazırda Azərbaycan ilə hökumətlərarası saziş imzalamış regionlarla əlaqələrə xüsusi diqqət yetirilir. Rusiyanın bir çox regionları da ölkəmizin işgüzar dairələri ilə biznes birlikləri, biznes missiyaları vasitəsilə geniş əlaqələr qurmaq niyyətindədir. Ticarət nümayəndəsi vurğulayıb ki, son 2 ildə Rusiyanın 25-dən çox regionuna səfərləri zamanı müxtəlif beynəlxalq tədbirlərdə, investisiya forumlarında Azərbaycanın iqtisadi potensialının təqdimatları keçirilib.

Forumda Azərbaycan şərablarının təbliğinə dəstək, ölkəmizdən meyvə-tərəvəz konservlərinin, eləcə də aqrar məhsulların ixracı potensialının artırılmasına dair fəaliyyət planının qəbul edilməsi, birgə istehsalın genişləndirilməsi, sənaye məhsullarının Rusiya bazarında təşviqi və Azərbaycanda müştərək müəssisələrin yaradılması imkanlarının araşdırılması məsələləri müzakirə olunub.

Qeyd edilib ki, iki ölkə arasında turizm sahəsində geniş perspektivlər mövcuddur. Rusiyadan Azərbaycana turist axını ilbəil artır, bu isə ölkəmizin əlverişli coğrafi şəraiti, rusiyalılar üçün dil məhdudiyyətinin olmaması, müasir infrastruktur və digər göstəricilərlə şərtlənir.

Rusiya ticarət və sənaye palatasının vitse-prezidenti Vladimir Padalko, ticarət nümayəndəliyinin biznes klubunun icraçı direktoru Mariya Suvorovskaya, Rusiyanın Azərbaycandakı Ticarət nümayəndəsi Ruslan Mirsayapov, Kaluqa vilayətinin qubernator müavini Vladimir Potemkin, Rusiya-Azərbaycan İşgüzar Şurasının icraçı direktoru Yuri Danilov, "ETNOMİR" Parkının rəhbəri Ruslan Bayramov və digərləri biznes birliklərinin qarşılıqlı əlaqəsi sayəsində əməkdaşlığın inkişafından söz açıblar.

Kaluqa vilayətinin qubernator müavini Vladimir Potyomkin AZƏRTAC-a müsahibəsində bildirib ki, Kaluqa vilayəti Azərbaycanın iş adamlarının regiona cəlb olunmasında maraqlıdır. O, vilayətdə turizm, müalicə-sanatoriya, tikinti və digər sahələrdə təcrübə mübadiləsi aparılmasını təklif edib, Kaluqa ilə Bakı arasında birbaşa aviareyslərin açılmasının vacibliyini vurğulayıb. V.Potyomkinin fikrincə, birbaşa reysin açılması Azərbaycan ilə təkcə Kaluqa arasında deyil, həm də ətraf regionlar, o cümlədən Tula, Bryansk və digər vilayətlər arasında əlaqələrin inkişafına təkan verəcək.

Rusiyanın Sergeyev-Posad şəhər dairəsi başçısının müavini Andrey Tolstikov hazırda Moskva vilayətinin 7 şirkətinin Azərbaycan kapitalı ilə fəaliyyət göstərdiyini qeyd edib. O, forumda şəhərin sənaye parkında Azərbaycan şirkətlərinə bir hektar sənaye ərazisi təklif edildiyini diqqətə çatdırıb.

Tədbir çərçivəsində "ETNOMİR"də Azərbaycan pavilyonunun təntənəli açılışı olub.

Bu layihə ölkəmizin ticarət nümayəndəliyinin Azərbaycan "Ticarət Evi" konsepsiyası çərçivəsində həyata keçirilir. Pavilyonda geniş çeşiddə Azərbaycan məhsulları sərgilənir.

Tədbirin sonunda Azərbaycan məhsullarının dequstasiyası təşkil olunub.



# Yeni nəqliyyat layihələri iqtisadi inkişaf üçün geniş imkanlar yaradır

*Əvvəli 1-ci səh.*

Türkmənistan və Azərbaycan bu gün əfqanıstanlı, gürcüstanlı və türkiyəli tərəfdaşları ilə birlikdə Asiya ilə Avropa arasında ən mühüm kontinental magistrala çevrilməli olan Lapis-Lazuli nəqliyyat dəhlizinin səmərəli fəaliyyəti üzərində fəal iş aparıb. Türkmənistan və Azərbaycan həm də Xəzər dənizi-Qara dəniz nəqliyyat yolu sisteminin yaradılmasının təşəbbüskarlarından biridir".

Yeri gəlmişkən qeyd edək ki, Azərbaycanda region və dünya üçün bir çox mühüm layihələr icra olunur. Bunlardan biri də "Şimal-Cənub nəqliyyat dəhlizi"dir. Bu, Asiyanı Azərbaycan və Rusiya vasitəsilə Avropaya birləşdirən mühüm marşrutdur. Layihənin icrası Asiyanın bir çox ölkələrinin Avropa ilə ticarətini həm sürətləndirəcək, həm də genişləndirəcək. Vurğulayaq ki, bu layihənin təşəbbüskarı, eləcə də qəbul edilən qərarların əsas icraçısı Azərbaycandır.

Prezident İlham Əliyev Asiya İnkişaf Bankının rəhbərləri ilə keçirilən videokonfransda onların diqqətini "Şimal-Cənub nəqliyyat dəhlizi"nin əhəmiyyətinə cəlb edərək demişdir: "Azərbaycan artıq bu dəhlizə böyük həcmdə sərmayə yatırmışdır. Onun çox böyük potensialı var. Biz artıq şimaldan - Rusiyadan daxil olan, Azərbaycan ərazisindən qərb və cənub istiqamətində yükləri qəbul edirik. Lakin İranla sərhəddən başlayaraq Rusiya ilə sərhədə qədər dəmir yolumuzun keyfiyyəti yaxşı deyil. Buna görə də biz qatarların sürətini artırmaq üçün indi artıq bəzi vəsaiti sərmayə olaraq yatırmışıq və biz bunu etməyi planlaşdırırıq... Bu gün artıq bizim Rusiya ilə sərhədimizdə tıxaclar var. Çünki Azərbaycandan, həm də İrandan artan ixrac malların artıq yük maşınları ilə gətirilməsini mümkünsüz edir. Buna görə də bizə "Şimal-Cənub dəhlizi"nin bir hissəsi olaraq müasir dəmir yolu sistemi lazımdır. Mən sizdən bu layihəni də nəzərdən keçirməyi xahiş etmək istərdim. Gələcək kommunikasiya prosesində ola bilsin sizə hansı işlərin görüldüyü və bizim planlarımız ilə bağlı daha ətraflı məlumat veriləcəkdir".

Bugünədək Asiya İnkişaf Bankı (AİB) ilə ölkəmiz arasında mövcud olan əməkdaşlıq deməyə əsas verir ki, "Şimal-Cənub dəhlizin"in maliyyələşməsində də AİB yaxından iştirak edəcək. Çünki həmin bankın ölkəmizə olan marağı və etimadı böyükdür.

Bir daha vurğulayaq ki, ölkəmizdə icra edilən bu kimi nəhəng infrastruktur layihələri beynəlxalq qurumlar tərəfindən də yüksək qiymətləndirilir. Həmin qurumlar dəfələrlə Azərbaycanda görülən işlərin təkcə ölkəmiz deyil, dünya üçün də böyük əhəmiyyət daşıdığını bildiriblər. Azərbaycanda icra edilən layihələr sayəsində ölkəmiz dünyada mühüm nəqliyyat dəhlizləri - Şərq-Qərb, Şimal-Cənub marşrutları üzrə önəmli qovşağa çevrilib. İndi bu istiqamətlərdə gedən bütün yollar Azərbaycanda birləşir.

"Şərq-Qərb nəqliyyat dəhlizi"nin yaradılması istiqamətində dövlətimiz tərəfindən vaxtında atılan addımlar öz bəhrəsini verir. Belə ki, ötən il həmin nəqliyyat dəhlizi üzərindən yük daşınması artıb. Çünki Bakı-Tbilisi-Qars dəmir yolunun istismara verilməsi bu dəhlizə geniş imkanlar yaradır. Ən başlıcası isə Azərbaycandan keçən həmin dəhliz üzərindən təkcə şərq istiqamətindən deyil, eyni zamanda Rusiya tərəfindən yüklərin Türkiyəyə və Avropaya daşınması da müşahidə edilir. Bir sözlə, "Şərq-Qərb nəqliyyat dəhlizi" ilə yanaşı, "Şimal-Cənub nəqliyyat dəhlizi"nin də işlək əmsalı ildən-ilə yüksəlir. Türkmənistan, Əfqanıstan və digər ölkələrin də Azərbaycandan keçən nəqliyyat dəhlizindən istifadə etməsi həm yük daşınmasının həcmini, həm də bu marşrutun iqtisadi və siyasi əhəmiyyətini artıracaq. Bu da ölkəmizin iqtisadi inkişafına və beynəlxalq aləmdə nüfuzunun artmasına yeni imkanlar açacaq.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

## 30 Yanvar Gömrük İşçilərinin Peşə Bayramı Günüdür

# Həyata keçirilən iqtisadi islahatlar gömrük xidmətinin qarşısında yeni tələblər qoymuşdur

Bu il müstəqil Azərbaycan Respublikasında gömrük orqanlarının yaradılmasının 29-cu ildönümü tamam olur. 1992-ci ildə yaradılmış gömrük xidmətinin keçdiyi yol o qədər də asan olmayıb.



Həmin illərdə mürəkkəb ictimai-siyasi vəziyyət bir çox qurumlar kimi, gömrük orqanlarının da formalaşmasına imkan vermirdi, baxmayaraq ki, dövlət quruculuğu sahəsində önəmli hesab olunan ölkənin iqtisadi maraqlarının və mənafelərinin qorunması, səmərəli xarici-iqtisadi fəaliyyət və idxal-ixrac əməliyyatlarına dövlət nəzarət sisteminin yaradılması, sərhədlərin iqtisadi təhlükəsizliyinin təmin edilməsi həyati əhəmiyyətli məsələ idi.

Danılmaz faktdır ki, Ümummilli Lider Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində dövlət müstəqilliyi dönməz xarakter aldı. Müstəqilliyimizin ilk illərində ölkə iqtisadiyyatının digər sahələri kimi, ciddi tənəzzül dövrünü yaşayan gömrük xidməti də Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra köklü kadr islahatları və kompleks tədbirlər nəticəsində stabil və dinamik inkişaf yoluna qədəm qoydu. Ulu Öndər Heydər Əliyev gömrük xidmətinin ölkə iqtisadiyyatının inkişafında olan rolunu hər zaman yüksək qiymətləndirir və bu orqanın fəaliyyətini daima diqqət mərkəzində saxlayırdı. 1993-cü ilin ikinci yarısından etibarən Azərbaycanın dövlət suverenliyinin təmin edilməsi, onun yüksələn xətlə inkişafı ölkədə aparılan uğurlu gömrük siyasətilə də bilavasitə bağlıdır.

1995-ci il yanvarın 9-da Azərbaycan Prezidentinin yanında gömrük işinin təşkilinə həsr olunmuş müşavirədə Heydər Əliyevin proqram xarakterli nitqi respublikada gömrük xidmətinin yenidən qurulması, inkişafının əsas istiqamətləri və prinsiplərini müəyyən etməklə, respublikada gömrük işinin inkişafına böyük təkan verdi və Dövlət Gömrük Komitəsinin fəaliyyətində ciddi dönüş yarandı.

Bu dönüşdən sonra dövlət büdcəsinin formalaşmasında gömrük orqanlarının rolu xeyli artırıldı, gömrük qanunvericiliyi bazasının yaradılmasına başlanıldı, hüquqi-normativ sənədlərin və gömrük işinə dair ilk dərsliklərin, tədris-metodiki vəsaitlərin hazırlanması həyata keçirildi, gömrük sahəsində iqtisadi göstəricilər yaxşılaşdı, maddi-texniki baza möhkəmləndirildi, elektron informasiya təminatı yaradıldı, qaçaqmalçılığa və gömrük qaydalarının pozulmasına qarşı mübarizə gücləndirildi.

Ümummilli Lider Heydər Əliyev iqtisadi məsələlərə həsr edilmiş müşavirədə və yığıncaqlarda, xüsusilə 1997-ci il yanvarın 30-da Dövlət Gömrük Komitəsinin yaradılmasının 5-ci ildönümünə və gömrük əməkdaşlarının peşə bayramı gününə həsr edilmiş təntənəli yığıncaqdakı nitqində gömrük orqanlarının fəaliyyətini dəqiqliklə təhlil edərək, bu sistemdə yaranmış problemlərin həlli yolunun tələbkarlıq və nizam-intizam, peşəkarlıq mühitinin formalaşdırılması, kadrlarla işin yenidən qurulması, hər bir gömrük işçisinin öz dövlətinə sadiqlik prinsipinin əsas meyara çevrilməsi sayəsində mümkünlüyünü göstərmişdi. Ulu Öndər Heydər Əliyevin Dövlət Gömrük Komitəsinin təsis edilməsinin 5 illiyində, 1997-ci ildə dediyi "Gömrük xidməti hər bir dövlətin müstəqilliyinin əsas atributlarından biridir" sözlərinə əsasən vurğulamaq yerinə düşər ki, həqiqətən də, gömrük xidməti öz imkanlarına görə unikal bir orqandır. Çünki üzərinə düşən vəzifə həm dövlət büdcəsinə daxilolmaları təmin etmək, gömrük hüquqpozmalarına qarşı mübarizə aparmaq, xarici ticarəti sürətləndirmək və asanlaşdırmaq, həm də ölkənin iqtisadi təhlükəsizliyini qorumaqdır. Azərbaycan Prezidentinin 10 yanvar 1997-ci il tarixli sərəncamı ilə yanvarın 30-nun gömrük əməkdaşlarının peşə bayramı günü elan edilməsi də Heydər Əliyevin bu orqanın fəaliyyətinə verdiyi çox yüksək dəyərin əyani nümunəsi idi.

Bu gün Heydər Əliyev siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyev Azərbaycan gömrüyünün öz ənənələrini qoruyub saxlaması və daha da təkmilləşdirilməsi işini daim diqqət mərkəzində saxlayır. Qürur duyuruq ki, ölkəmizdə müasir tələblərə cavab verən modern gömrük sisteminin yaradılması işi dövlətimiz tərəfindən daim dəstəklənir və bu sahədə əldə olunan uğurlar layiqincə dəyərləndirilir. Bu gün Azərbaycan Gömrük Xidməti mükəmməl hüquqi bazaya, inkişaf etmiş infrastruktura malik olmaqla, ölkədə fiskal siyasəti uğurla həyata keçirir, onun quru, hava və dəniz yollarında respublikanın iqtisadi mənafeyini və təhlükəsizliyini qoruyur. Dövlət Gömrük Komitəsi eyni zamanda hüquq mühafizə orqanı olaraq qaçaqmalçılıq və digər hüquqpozma hallarına qarşı mübarizənin gücləndirilməsi istiqamətində məqsədyönlü tədbirlər həyata keçirir.

Azərbaycan Respublikası Prezidentinin 23 aprel 2018-ci il tarixli sərəncamı ilə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinə sədr təyin edilən Səfər Mehdiyevin və komitənin əzmkar kollektivinin həyata keçirdikləri mütərəqqi islahatlarda, gömrük işinin inkişafında, idxal-ixrac əməliyyatlarının sürətli və şəffaf şəkildə həyata keçirilməsində mühüm rolunu da xüsusi olaraq qeyd etmək lazımdır.

Həyata keçirilən islahatlar nəticəsində Azərbaycan gömrüyü keyfiyyətcə yeni inkişaf mərhələsinə daxil olub və onun müasir siması formalaşıb. Azərbaycan gömrüyü ötən dövr ərzində fəaliyyətinin bütün istiqamətlərində ciddi nailiyyətlər qazanıb, məqsədyönlü fəaliyyətilə dünya gömrük ailəsinə inteqrasiya olunub və Ümumdünya Gömrük Təşkilatının ən fəal üzvlərindən biri kimi özünü təsdiq edə bilib. Həmçinin Azərbaycan Respublikasının dövlət büdcəsinin formalaşmasında Dövlət Gömrük Komitəsinin rolu mühüm dərəcədə artıb, gömrük işinin iqtisadi göstəriciləri də xeyli yüksəlib.

Dövlət Gömrük Komitəsi hər il olduğu kimi, ötən ildə də fiskal siyasətin həyata keçirilməsi, idxal-ixrac əməliyyatları üzrə gömrük nəzarətinin təkmilləşdirilməsi, xarici-iqtisadi fəaliyyətdə gömrük-tarif tənzimlənməsi və gömrük orqanlarında maliyyə-vergi mexanizminin təkmilləşdirilməsi istiqamətində əhəmiyyətli işlər görüb. Ötən il ölkəmizdə aparılan dərin islahatlar gömrük sistemində də müsbət dəyişikliklərə səbəb olub. Belə ki, gömrük sistemində həyata keçirilən son islahatlar nəticəsində dövlət sərhəd-buraxılış məntəqələrinin buraxılış qabiliyyətini artırmaq və vətəndaşların rahatlığını təmin etmək üçün malların və nəqliyyat vasitələrinin yoxlanılmasında "bir pəncərə" prinsipi daha da təkmilləşdirilib.

Artıq ölkəmizə gələn və ölkəmizdən gedən vətəndaşlar gömrük sərhədindən keçirdikləri mallar, nəqliyyat vasitələri, zinət əşyaları və valyuta, müşayiət olunmayan baqaj və ya daşıyıcı tərəfindən keçirilən mallar və s. barədə məlumatları qabaqcadan, gömrük məntəqəsinə gəlmədən "onlayn" qaydada Dövlət Gömrük Komitəsinin rəsmi internet saytı (www.dgk.gov.az) və ya Elektron Hökumət Portalı (www.e-gov.az) vasitəsilə gömrük orqanlarına təqdim edə bilirlər. Həmçinin vətəndaşların sərhəddən keçidini daha asan etmək məqsədilə bütün sərhəd-buraxılış məntəqələrində "Gömrük" köşkləri quraşdırılıb. Bu məlumat köşkləri vasitəsilə vətəndaşlar sadələşdirilmiş elektron bəyannaməni doldurur, həmçinin gömrük qanunvericilik bazası və səyahətçilər üçün gömrük nəzarəti ilə bağlı qaydalarla tanış olurlar.

Dövlət Gömrük Komitəsinin çoxsaylı kollektivi də ən böyük nailiyyətimiz olan müstəqilliyin əbədi olaraq qorunub saxlanılması, müstəqil Azərbaycanın beynəlxalq nüfuzunun daha da artırılması və xalqımızın firavan gələcəyinin təmin edilməsi naminə qarşıya qoyulan vəzifələrin uğurla yerinə yetirilməsində müstəsna rol oynayır və bu missiyanı daim davam etdirəcəyinə inanırıq.

***Mübariz MUSTAFAYEV,***
***gömrük xidməti polkovniki***

# Sahibkarlar işğaldan azad edilmiş ərazilərdə qida və ictimai iaşə müəssisələrinin yaradılmasına maraq göstərirlər

Sahibkarlar işğaldan azad edilmiş ərazilərdə qida və ictimai iaşə müəssisələrinin yaradılmasına, bu sektora investisiya qoyuluşuna böyük maraq göstərirlər.

AZƏRTAC xəbər verir ki, bu sözləri yanvarın 28-də Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) dəstəyi, İctimai Şuranın təşkilatçılığı və Azərbaycan Qida və İçki Sənayeçiləri Assosiasiyasının tərəfdaşlığı ilə keçirilmiş "Qida sənayesi və ictimai iaşə sektoru: mövcud vəziyyət və perspektivlər" mövzusunda onlayn forumda qurumun idarə heyətinin sədri Orxan Məmmədov deyib.

O.Məmmədov qeyd edib ki, 2020-ci ildə Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyəti və rəşadətli Ordumuzun qəhrəmanlığı nəticəsində torpaqlarımızın işğaldan azad edilməsi biznes üçün yeni imkanlar açıb: "İşğaldan azad edilmiş ərazilərdə biznes qurmaq istəyən sahibkarlardan indiyədək KOBİA-ya çoxsaylı müraciətlər daxil olub. Bu müraciətlər əsasən istehsal, turizm, tekstil, tikinti, tibb fəaliyyəti, eləcə də qida sənayesi üzrə ictimai iaşə və kənd təsərrüfatı sahələrini əhatə edir. KOBİA tərəfindən işğaldan azad edilmiş ərazilərdə biznes qurmaq və investisiya yatırmaq istəyən sahibkarlara lazımi informasiya, əlaqəndirmə və məsləhət xidmətləri göstərilir".

KOBİA-nın sədri pandemiyanın ictimai iaşə sektoruna da təsirsiz ötüşmədiyini, hökumət tərəfindən müxtəlif dəstək mexanizmləri vasitəsilə biznesin qorunması istiqamətində aktiv tədbirlərin hazırda da davam etdirildiyini vurğulayıb. Postmüharibə dövründə və postpandemiya ərəfəsində sahibkarların və dövlət qurumlarının iştirakı ilə keçirilən bu forum aktual müzakirələr üçün və dövlət-biznes dialoqu üçün əhəmiyyətli platformadır.

Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin (AQTA) sədr müavini Balarəhim Quliyev çıxışında pandemiya dövründə qurumun həyata keçirdiyi tədbirlər barədə məlumat verib. O, COVID-19-la mübarizə tədbirləri çərçivəsində əhali və sahibkarlar arasında geniş maarifləndirmə işlərinin aparıldığını, ictimai iaşə, turizm, qida məhsullarının ticarəti ilə məşğul olan və digər sahibkarlıq subyektlərində monitorinqlərin keçirildiyini bildirib. Beynəlxalq və yerli ekspertlərin iştirakı ilə AQTA-nın işğaldan azad edilmiş ərazilər üzrə fəaliyyətinə dair konsepsiya sənədinin hazırlanaraq aidiyyəti üzrə təqdim olunduğunu qeyd edən B.Quliyev işğaldan azad olunmuş rayonların dirçəldilməsində sahibkarların üzərinə məsuliyyətli vəzifələrin düşdüyünü, bu vəzifələrin icrası zamanı qarşıya çıxan məsələlərin həlli üçün sahibkarları agentliklə aktiv əməkdaşlığa dəvət edib.

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının vitse-prezidenti Vüqar Zeynalov təşkilatın 2020-ci ildə pandemiyanın sahibkarlığın inkişafına təsirini azaltmaq üçün sahibkarların yanında olduğunu, onlardan daxil olan çoxsaylı müraciətləri və təklifləri dövlət qurumlarına təqdim etdiklərini, biznes subyektləri və dövlət orqanlarının iştirakı ilə müzakirələrin aparıldığını qeyd edib.

Azərbaycan Qida və İçki Sənayeçiləri Assosiasiyasının sədri Emin Dostiyari pandemiya dövründə qida sənayesi və ictimai iaşə sektorunda fəaliyyət göstərən sahibkarlıq subyektlərinin qarşılaşdıqları çətinliklər barədə məlumat verib, bu sektorda yeni iş yerlərinin açılması və iqtisadiyyatın canlanması üçün səyyar satış imkanları, dövlət dəstəyi ilə onlayn satış və çatdırma platformasının yaradılması və s. barədə assosiasiya üzvlərinin təkliflərini diqqətə çatdırıb.

"Forum qida sənayesi və ictimai iaşə sektorunda fəaliyyət göstərən KOB subyektlərinin pandemiya dövründə qarşılaşdıqları çətinliklər və postpandemiya dövründə gözləntilərin dövlət-biznes dialoqu çərçivəsində müzakirə edilməsi, təkliflərin öyrənilərək aidiyyəti qurumlara çatdırılması məqsədilə təşkil olunub. Tədbir agentlik yanında İctimai Şura tərəfindən təşkil olunan sayca 9-cu forumdur və 2021-ci il ərzində də əsasən pandemiyadan ziyan çəkmiş sektorlar olmaqla, iqtisadiyyatın müxtəlif sahələri üzrə ictimai müzakirələrin və digər tədbirlərin təşkili davam etdiriləcək", - deyə KOBİA yanında İctimai Şuranın sədri Fərhad Qaraşov bildirib.

Onlayn forumda həmçinin qida biznesi sahəsində fəaliyyət göstərən sahibkarlıq subyektlərinin problemləri müzakirə olunub, tədbir iştirakçılarının sualları cavablandırılıb.

Qeyd edək ki, karantin rejimi ilə əlaqədar onlayn formatda təşkil olunmuş foruma İqtisadiyyat Nazirliyi və onun struktur bölmələri, Kənd Təsərrüfatı Nazirliyi, Qida Təhlükəsizliyi və Dövlət Turizm agentliklərinin nümayəndələri, qida və ictimai iaşə sektorunda çalışan sahibkarlıq subyektləri (qida və kənd təsərrüfatı məhsullarının istehsalçıları, qida idxalatçıları və ixracatçıları, market, restoran, kafe, hotel və digər iaşə obyektləri) və biznes assosiasiyaları qatılıb.

# Daha iki qazi ailəsi ilə bağlı dəstək işləri aparılır

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin DOST Agentliyinin DOST mərkəzlərinin əməkdaşlarının Vətən müharibəsi şəhidlərinin ailələri, qazilərimizlə görüşləri, onlarla bağlı dəstək tədbirləri davam edir.

Bu istiqamətdə işlərin davamı kimi, 1 saylı və 3 saylı Bakı DOST Mərkəzlərinin əməkdaşları Vətən müharibəsi iştirakçıları olan və müharibədə yaralanmış Orxan Məmmədzadənin (Yasamal rayonu) və İbrahim Məmmədovun (Sabunçu rayonu) ailələrində olublar.

Ailəsi 3 nəfərdən ibarət olan Orxanın anasının xəstəliyi ilə əlaqədar əlilliyinin qiymətləndirilməsi üçün müraciət prosedurunun sürətli şəkildə həyata keçirilməsində ona kömək ediləcək. Əlillik təyinatı aparılarsa, ona sosial ödəniş təyin olunacaq.

İbrahimgilin 4 nəfərlik ailəsində yalnız bacısının işsiz olduğu nəzərə alınaraq onun məşğulluğunun təmin edilməsinə kömək göstərilməsi qərara alınıb və yaxın günlərdə o, işlə təmin ediləcək.

Hər iki qazinin - Orxanın və İbrahimin də əlilliyi qiymətləndiriləcək və əlillik dərəcəsi təyin olunduğu halda onlar birdəfəlik sığorta ödənişi və sosial təminat növləri üzrə aylıq ödənişlərlə təmin olunacaqlar. Bu barədə hər iki qaziyə məlumat verilib. Həmçinin hər iki ailəyə bildirilib ki, DOST Agentliyi və mərkəzlərinin əməkdaşları qəhrəman əsgərlərimizlə qürur duyur. Şəhid ailələri və qazilərimizin ehtiyaclarının qarşılanması üçün qanun çərçivəsində onlara bütün lazımi dəstək göstəriləcək.

# Keçən il 955 halda əmək qanunvericiliyinin pozulması faktı aşkar edilib

2020-ci ildə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinə vətəndaşlar tərəfindən ərizə formasında daxil olan 10 102 müraciət araşdırılaraq cavablandırılıb.




Vətəndaşlar əsasən emal, tikinti, topdan və pərakəndə ticarət, avtomobillərin təmiri, ictimai iaşə və s. sahələrdə əmək münasibətləri ilə bağlı müraciət ediblər. Müraciətlərin araşdırılması zamanı 955 halda əmək qanunvericiliyinin tələblərinin yerinə yetirilməməsi faktı aşkar edilib.

Aşkar edilmiş hüquq pozuntularının aradan qaldırılması üçün xidmət tərəfindən qanunvericiliyə uyğun tədbirlər görülüb, həmçinin işəgötürənlərə əmək qanunvericiliyinin müvafiq məsələlərlə bağlı tələblərinə dair ətraflı məlumat verilib.

# Vətən müharibəsi zamanı mülki əhaliyə dəymiş ziyan aradan qaldırılır



Məlum olduğu kimi, 44 günlük Vətən müharibəsi zamanı Ermənistan silahlı qüvvələri cəbhə xəttindən uzaqda yerləşən bir sıra şəhər və rayon mərkəzlərimizi artilleriya və ballistik raket atəşinə tutaraq insanlıq əleyhinə cinayətlər törətmişdir.

Nəticədə mülki əhali arasında çoxsaylı tələfatla yanaşı, mülki obyektlərə, fərdi yaşayış evlərinə və infrastruktura xeyli ziyan dəymişdir.

Dəymiş ziyanın qiymətləndirilməsi və qısa vaxt ərzində aradan qaldırılması məqsədilə Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə yaradılmış dövlət komissiyası 11 şəhər və rayon ərazisində 1000-dən artıq obyektə baxış keçirmiş, qiymətləndirmə və təmir-tikintinin ilkin planlaşdırılması işlərini aparmışdır.

Həmin ərazilərdən biri də Gəncədir. Oktyabrın 11-də ilk raket zərbəsinə məruz qalan şəhərdə çoxsaylı insan tələfatı olmuş, körpələr atasız-anasız, insanlar evsiz-eşiksiz qalmışlar. Təəssüflər olsun ki, dünya ictimaiyyəti bu cinayətə lazım olan reaksiyanı verməmişdir. Nəticədə Ermənistan ikinci dəfə bu vandal hərəkətini təkrar etmişdir. Oktyabrın 17-də gecə saatlarında Gəncə yenidən raket atəşinə tutulmuş, ikisi azyaşlı olmaqla 14 nəfər həlak olmuş, 50-dən artıq dinc əhali xəsarət almışdır.

Dövlət bu dəfə də ziyan dəymiş insanların yanında olmuşdur. Evləri dağılmış mülki əhali müvəqqəti sığınacaqla təmin edilərək, onlara kompensasiya ödənilmişdir. Bu günlərdə isə dağılmış evlərin bərpası istiqamətində işlərə başlanılmışdır. Dövlət başçısının müvafiq sərəncamına əsasən, Gəncədə Ermənistanın təcavüzü nəticəsində zərər çəkmiş infrastrukturun, sahibkarlıq obyektlərinin, eləcə də yaşayış evlərinin bərpasına start verilmişdir.

İlkin mərhələdə şəhərə atılan ballistik raketlər nəticəsində dağılmış ərazilərdə təmizləmə işləri həyata keçirilir. Biz şəhərin Muxtar Hacıyev küçəsində olarkən dağıntıların aradan qaldırılması işləri ilə tanış olduq. İnşaat mühəndisi Murad Tapdıqlı ilə söhbət zamanı məlum oldu ki, artıq 3-4 gündür ərazidə təmizləmə işləri aparılır. Ərazi dağıntılardan təmizləndikdən sonra evlərin tikintisinə başlanacaqdır. Tikintiyə lazımi qədər texnika və işçi qüvvəsi cəlb olunub. Layihəyə əsasən burada 1, 2 və 3 otaqlı evlər inşa ediləcək.

Qeyd edək ki, Gəncədə dağılmış 24 fərdi yaşayış evinin və bir neçə çoxmənzilli yaşayış binasının yenidən tikilməsi, 1598 təmir və bərpa kateqoriyasına aid olan evin təmiri nəzərdə tutulur.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Mingəçevir Dövlət Universiteti sürətlə modernləşir

Dünyanı bürümüş COVID-19 infeksiyasına qarşı mübarizə tədbirlərinin davam etdirilməsi ali təhsil müəssisələri qarşısında yeni çağırışlar yaratmış, əvvəlki dövrlərdə rast gəlinməmiş vəzifələrin icrasını qaçılmaz etmişdir. Başqa sözlə, universitetlər qısa müddətdə mövcud reallıqlara uyğunlaşmağa, tədris prosesinin davamlılığının təmin edilməsi üçün bütün mümkün resursları səfərbər etməyə, rəqəmsallaşmanı sürətləndirməyə, məsafədən təhsilin təşkili üçün çevik və qeyri-ənənəvi qərarlar qəbul etməyə çalışır.



Ölkəmizdə 2020/2021-ci tədris ilinin başa çatan payız semestri pandemiya dövrünün mövcud çətinlikləri ilə yanaşı, müzəffər Ali Baş Komandanımızın və rəşadətli Azərbaycan Ordusunun sayəsində möhtəşəm tarixi Zəfərin əldə edilməsilə nəticələnmiş 44 günlük Vətən müharibəsi ilə yadda qalmışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin yeni dərs ilinin başlanması və Bilik Günü münasibətilə 15 sentyabr 2020-ci il tarixli müraciətində qarşıya qoyduğu vəzifələrdən irəli gələrək, cari tədris ilinin payız semestri ərzində ali təhsil prosesinin təşkili zamanı tələbələrin müasir bilik və bacarıqlar əldə etməsi, gənclərin sağlamlığı və inkişafı ilə yanaşı, onların milli-mənəvi dəyərlərimiz əsasında və vətənpərvərlik ruhunda tərbiyə olunmasının prioritetliyi təmin edilmişdir.

Yeni dövrün ali təhsil müəssisəsinə çevrilməyi, qabaqcıl paytaxt universitetləri səviyyəsində ali təhsil xidmətləri göstərməyi, şəhər və ətraf rayonların hərtərəfli inkişafına töhfənin artırılmasını strateji vəzifələr olaraq müəyyənləşdirən Mingəçevir Dövlət Universiteti (MDU) fəaliyyətini milli ali təhsilimizdə müşahidə olunan inkişaf trendlərini, beynəlxalq ali təhsil məkanında baş verən dəyişikliklərə əsaslanan yeni çağırışları, eləcə də universitetin mövcud və potensial imkanlarını əhəmiyyətli dərəcədə nəzərə almaqla həyata keçirir.

Cari tədris ilinin payız semestri ərzində mövcud şərtlər daxilində tədrisin keyfiyyətinin yüksəldilməsi, elmi fəaliyyətin səmərəliliyinin artırılması, maddi-texniki bazanın gücləndirilməsi, professor-müəllim və inzibati-texniki heyət üzvlərinin həvəsləndirilməsi və sosial rifahının yaxşılaşdırılması, yerli və xarici universitetlərlə qarşılıqlı faydalı əməkdaşlığın genişləndirilməsi, özəl və dövlət qurumları ilə səmərəli işbirliyinin yaradılması modernləşməkdə olan MDU-nun prioritet fəaliyyət istiqamətləri kimi müəyyən edilmişdir.

Əmək bazarının tələblərinə uyğun yüksəkixtisaslı və rəqabətqabiliyyətli kadrların hazırlanması, təhsilalanlara müasir bilik və bacarıqların ötürülməsi, onların karyera inkişafına və məşğulluq problemlərinin həllinə dəstək göstərilməsi, universitetin innovasiya potensialının genişləndirilməsi istiqamətində birgə layihələrin reallaşdırılmasına böyük üstünlüyün verilməsi, bütövlükdə MDU-nun cəlbediciliyinin artmasına, cəmiyyət həyatında faydalı rolunun güclənməsinə və regional eko-sistemin mühüm aktorlarından birinə çevrilməsinə hədəflənmişdir.

Hazırda universitetdə iqtisadiyyat, mühəndislik və pedaqoji profilləri əhatə edən 23 ixtisas (bakalavriat) və 12 ixtisaslaşma (magistratura) üzrə kadr hazırlığı həyata keçirilir. Üç fakültənin, on kafedranın mövcud olduğu universitetdə ümumilikdə 2600-dən artıq tələbə və magistrant təhsil alır. Cari tədris ilində universitetə yüksək balla qəbul olan və “Gələcəyin müəllimi” təqaüdünə layiq görülən tələbələrin sayında artımın müşahidə edilməsi son dövrdə MDU-nun imicinin yüksəldilməsi istiqamətində görülən işlərin müsbət nəticəsi kimi qiymətləndirilir.

Pandemiya şəraitində universitetin əsas vəzifəsi tədrisin keyfiyyətli şəkildə davamlılığının təmin edilməsi, məsafədən təhsil prosesində tələbələrin yüksək fəallığına və mənimsəmə səviyyəsinə, biliyin qiymətləndirilməsi prosesinin optimal həllinə nail olunmasından ibarət olmuşdur. Hesab etmək olar ki, bütün mümkün online kommunikasiya alətlərindən istifadə, müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqi, infrastruktur imkanlarının və kadr potensialının səfərbər olunması sayəsində MDU bu vəzifələrin öhdəsindən uğurla gələ bilmişdir.

“Xüsusi karantin rejimi dövründə Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən təhsil müəssisələrinin fəaliyyətinin təşkilinə dair əlavə tədbirlər barədə” Nazirlər Kabinetinin 29 oktyabr 2020-ci il tarixli Qərarına əsasən payız semestrində MDU-da tədris prosesi məsafədən təşkil olunmuşdur. Təhsil Nazirliyinin müvafiq dəstəyi ilə universitetdə bakalavriat və magistratura səviyyələri üzrə tədris davamlı surətdə “Microsoft Teams” platforması üzərindən həyata keçirilmişdir.

Mövcud qanunvericiliyin tələbləri və aparıcı ali təhsil müəssisələrinin müsbət təcrübəsi əsasında universitetdə yeni tədris ilinə hazırlıqla bağlı müvafiq əmrin verilməsi və buna əsasən tədris prosesinin təşkilinə dair qarşıya konkret vəzifələrin qoyulması, struktur bölmələr arasında funksional iş bölgüsünün dəqiq aparılması tədrisin təşkilində səmərəliliyin artırılmasına səbəb olmuşdur. Universitetdə tədrisin məsafədən təşkili ilə bağlı atılan məqsədyönlü, ardıcıl və çevik addımların sayəsində təhsilverənlərin və təhsilalanların onlayn dərslərdə yüksək iştirakçılıq səviyyəsi müşahidə edilmiş, müəllimlərin 95-100 faizi, tələbələrin isə 85-90 faizi məsafədən təhsilə cəlb olunmuşdur. Semestr ərzində müvafiq fənlər üzrə mühazirə mətnləri, təqdimatlar, eləcə də dərslik və dərs vəsaitlərinin elektron formatda bütün tələbələrə çatdırılması təmin edilmiş, MDU-nun professor-müəllim heyəti tərəfindən hazırlanan videodərslərin bazası genişləndirilmiş və ümumilkdə 1500-dən artıq videodərs çəkilərək tələbələrin istifadəsinə verilmişdir.

MDU-da 2020/-2021-ci tədris ilinin payız semestrinin imtahan sessiyası mövcud qaydalara uyğun təşkil edilmiş, tələbələrin biliyinin qiymətləndirilməsində şəffaflığı və obyektivliyi təmin etmək, yarana biləcək neqativ halları operativ surətdə aradan qaldırmaq məqsədilə zəruri tədbirlər görülmüşdür. Universitetdə İmtahan Qərargahı, “Qaynar xətt” və Apelyasiya Komissiyasının çevik və operativ fəaliyyəti təmin edilmiş, müəllimlərdən ibarət “İmtahanlara dəstək qrupu”, gənc əməkdaşlardan ibarət “Texniki dəstək qrupu” və tələbələrdən ibarət “İmtahan könüllüləri” imtahan prosesinin səmərəli təşkilində mühüm rol oynayırlar.

Pandemiya şəraitində elmi istiqamət üzrə universitet fəaliyyətinin davamlılığı və səmərəliliyi diqqət mərkəzində saxlanılmışdır. Bu dövrdə MDU-da 10 kafedra tərəfindən ənənəvi formada reallaşdırılan elmi fəaliyyət çərçivəsində 2021-2025-ci illər üçün dörd elm sahəsi üzrə (təbiət elmləri, texniki elmlər, ictimai elmlər, humanitar elmlər) ümumilikdə 16 problemə dair 43 mövzunu əhatə edən perspektiv beşillik elmi-tədqiqat işlərinin planları hazırlanmış və təsdiq edilmişdir.

Müasirləşməkdə olan MDU-nun kadr potensialının gücləndirilməsi məqsədilə gənc əməkdaşların qabaqcıl universitetlərin doktoranturalarında təhsil almasına xüsusi diqqət yetirilmiş, universitet tarixində ilk dəfə olaraq bir əməkdaşımız Türkiyənin Qazi Universitetinin Təhsil Elmləri İnstitutunda “Təhsilin idarə edilməsi” ixtisası üzrə doktorantura ali təhsil səviyyəsinə qəbul olmuşdur.

Ötən ilin dekabr ayında MDU-da Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anım gününə həsr olunmuş “Heydər Əliyev müasir Azərbaycan dövlətinin banisi, müstəqilliyimizin rəmzidir” mövzusunda onlayn formatda keçirilmiş elmi konfrans mühüm əhəmiyyət kəsb etmişdir. “Regional inkişafın təmin olunmasında innovativ tendensiyalar: reallıqlar və müasir çağırışlar” mövzusunda respublika elmi konfransı, “Tarixi qələbənin davamlı iqtisadi inkişafa potensial təsirləri” mövzusunda nəzəri-praktiki seminar, eləcə də qabaqcıl yerli universitetlər və sənaye qurumları ilə birgə ölkə və region iqtisadiyyatının aktual problemlərinə həsr olunan çoxsaylı elmi tədbirlər universitet kolektivi, ali təhsil və elmi ictimaiyyətin böyük marağına səbəb olmuşdur.

Semestr ərzində ölkəmizin qabaqcıl ali təhsil müəssisələrindən olan Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət İqtisad Universiteti, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti və Azərbaycan Texniki Universiteti ilə sıx qarşılıqlı faydalı əməkdaşlığın davam etdirilməsi MDU-nun potensialının gücləndirilməsi və kadr hazırlığının keyfiyyətinin yüksəldilməsi işinə əhəmiyyətli töhfə vermişdir.

Payız semestri ərəfəsində Avropa İttifaqının “Erasmus+” proqramı çərçivəsində reallaşdırılan “Sahil ekosistemlərinin iqlim dəyişikliyinə uyğunlaşması üçün geoməkan mühəndisliyi üzrə yeni kurslar” layihəsinə MDU-nun tərəfdaş qismində daxil edilməsi 2021-2023-cü illərdə Almaniya, Niderland, Litva və Rumıniya universitetlərinin müsbət təcrübələrinin öyrənilməsi, müvafiq ixtisaslar üzrə kurikulumların təkmilləşdirilməsi, laboratoriyaların və virtual otaqların yaradılması imkanlarını qazandıracaqdır.

Almaniyanın Siegen Universiteti və Prime Akademiyası ilə tərəfdaşlıq çərçivəsində reallaşdırılmış “Sahibkarlıq bacarıqlarının inkişaf etdirilməsi”, Almaniyanın Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin (GİZ) dəstəyi ilə həyata keçirilən “Karyera Mərkəzinin yaradılması və inkişafı” layihələri MDU-nun beynəlxalq əməkdaşlığının inkişafında yeni ənənələrin əsasını qoymuş və universitetin modernləşməsi prosesinə ciddi təkan vermişdir.

MDU Avropa Ali Təhsil Məkanı (EHEA) ölkələrinin Nazirlər Konfransında (Roma, İtaliya), Kəmər və Yol Universitetləri Alyansının (UAB&R) “Post-pandemiya dövründə beynəlxalq əməkdaşlıq və mübadiləyə yeni yanaşma” mövzusunda keçirdiyi beynəlxalq konfransda (Lanzhou, Çin) fəal təmsil olunmuşdur. Tədrisin məzmununun təkmilləşdirilməsi, eləcə də professor-müəllim və tələbə heyətinin praktiki bilik və bacarıqlarının inkişaf etdirilməsi məqsədilə MDU-da “Turizm sahəsi üzrə kadr hazırlığında yeni çağırışlar: təcrübə və karyera imkanları”, “Microsoft Teams Proqramı və onun imkanları” və digər mövzular üzrə mütəmadi təlimlər həyata keçirilmiş, ingilis dili mütəxəssisi olan amerikalı professor tədris prosesinə cəlb edilmişdir.

Xüsusi qeyd etmək lazımdır ki, 30 illik Qarabağ həsrətinə son qoyulması və ərazi bütövlüyümüzün təmin edilməsi ilə nəticələnən 44 günlük Vətən müharibəsi dövründə MDU-nun tələbə, məzun və əməkdaşları həm ön cəbhədə, həm də arxa cəbhədə fəal iştirak etmiş, yüksək həmrəylik nümayiş etdirmişlər. Eyni zamanda koronavirus pandemiyasına qarşı mübarizə tədbirləri çərçivəsində MDU-da kollektiv və tələbə heyəti arasında mütəmadi maarifləndirmə tədbirləri həyata keçirilmiş, bütün tədris binalarında dəfələrlə tibbi-profilaktik və dezinfeksiya işləri aparılmışdır.

Fikrimizcə, mövcud reallıqların doğurduğu yeni çağırışlara və məhdudiyyətlərə baxmayaraq, cari tədris ilinin payız semestrində universitetdə bütün istiqamətlər üzrə fəaliyyətin davamlılığının təmin edilməsində Təhsil Nazirliyi, Mingəçevir Şəhər İcra Hakimiyyəti və digər qurumlarla tərəfdaşlıq mühüm rol oynamışdır. Dövlət və özəl qurumlar, qeyri-hökumət və gənclər təşkilatları, o cümlədən media ilə qarşılıqlı faydalı əlaqələrin genişləndirilməsi sürətlə modernləşən MDU-nun milli ali təhsilin ümumi mənzərəsində mövqeyinin güclənməsi üçün ciddi əsaslar yaradır.

***Şahin BAYRAMOV,***
***Mingəçevir Dövlət Universitetinin rektoru***

# Karantin rejimi yumşaldılsa da, məsuliyyətimiz azalmamalıdır

*Əvvəli 1-ci səh.*

Hətta rəqəmlər gözləniləndən də bəzən yüksək oldu.

Azərbaycan dövlətinin ötən ilin bu vaxtlarından apardığı profilaktik tədbirlərin nəticəsi müsbət olduğu üçün Ümumdünya Səhiyyə Təşkilatı ölkəmizi infeksiyanın daha geniş yayılmasının qarşısının alınması istiqamətində gördüyü qabaqlayıcı tədbirlərə görə nümunə də göstərdi.

Təbii ki, yoluxmanın və ölüm hallarının ötən ilin yaz-yay aylarında azalması həmin qabaqlayıcı profilaktik tədbirlər, Nazirlər Kabineti yanında yaradılan Operativ Qərargahın qəbul etdiyi qərar və bəzi qadağalarla bağlı idi. Payız aylarına doğru, daha doğrusu, Ermənistanın yenidən Azərbaycan sərhədlərini pozaraq münaqişəni müharibə mərhələsinə gətirməsi kimi səbəblər pandemiyanın yenidən daha geniş məkanları bürüməsi ilə nəticələndi. Əhalinin pandemiyaya deyil, müharibəyə həssaslığı sanki “gözəgörünməz düşmən”lə savaşı arxa plana keçirdi.

2020-ci ilin Vətən müharibəsində qazandığımız Zəfər sevincləri koronavirusun az qala unudulmasına gətirib çıxarması da sonradan rəqəmlərin artmasına şərait yaradan amillərdən oldu.

Ötən il dünyanın koronavirus pandemiyası ilə üzləşdiyi bir vaxtda Azərbaycan Prezidentinin təşəbbüsü ilə Qoşulmama Hərəkatı Təmas qrupunun videokonfrans şəklində “COVID-19-a qarşı birlikdəyik” mövzusunda Zirvə toplantısının keçirilməsi təbii ki, heç də təsadüfi deyildir. Çünki BMT-yə üzv dövlətlərin üçdəikisini əhatə edən Qoşulmama Hərəkatı qlobal həmrəyliyin formalaşdırılmasında əhəmiyyətli rol oynayır.

Azərbaycan Prezidenti, Qoşulmama Hərəkatının sədri İlham Əliyev həmin Zirvə görüşünün iştirakçılarının nəzərinə çatdırdı ki, koronavirus pandemiyası dünyada vəziyyəti tamamilə dəyişdiyindən yeni reallıqlar meydana çıxıb. Azərbaycan yeni vəziyyətə çevik və adekvat reaksiya verib. Dövlət başçısı qeyd etdi ki, COVID-19 qlobal pandemiyası bütün dünya dövlətlərinə mənfi təsir göstərir. Heç bir ölkə bundan sığortalanmayıb. Qarşılıqlı dəstək, özünəqapanmama və yalnız birgə səylərlə COVID-19-a qalib gələ bilərik: “BMT Baş katibi Antonio Quterreş tərəfindən koronavirusa qarşı mübarizə məqsədilə qlobal humanitar cavab planının elan edilməsini, BMT Baş Assambleyasında müvafiq qətnamələrin qəbul olunmasını və Ümumdünya Səhiyyə Təşkilatının pandemiyaya qarşı qlobal mübarizədə oynadığı mühüm rolu yüksək qiymətləndiririk”.

Pandemiyanın ilk günlərindən ÜST-ün aparıcı mütəxəssislərindən ibarət heyətin 2020-ci ilin mart ayında ölkəmizə səfər edərək vəziyyətlə tanış olmasına, Azərbaycana göstərdiyi dəstəyə və Zirvə görüşündə iştirakına görə təşkilatın Baş direktoru Tedros Adhanom Gebreyesusa təşəkkürünü bildirən dövlət başçısı onu da qeyd etmişdir ki, bu, bizim təşəbbüsümüzlə keçirilən 2-ci Zirvə görüşüdür: “Sədri olduğumuz Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının mənim təşəbbüsüm ilə aprelin 10-da COVID-19-a qarşı Zirvə görüşü keçirilmişdir. Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru həmin Zirvə görüşündə də iştirak etdi və dəyərli tövsiyələrini verdi”.

Azərbaycan Prezidenti Qoşulmama Hərəkatının “Ümumdünya Səhiyyə Təşkilatı və onun Baş direktoruna dəstək” adlı 9 aprel tarixli bəyanatını da xatırladaraq vurğuladı ki, ÜST-ün Baş direktoru tərəfindən martın 23-də ünvanlanmış məktubda Azərbaycanda görülmüş işlərə yüksək qiymət verilib, pandemiyaya qarşı görülən tədbirlərə görə nümunəvi ölkə kimi dəyərləndirilib.

Bu ay ölkəyə gətirilən vaksinin əhalinin müəyyən sosial təbəqəsinə vurulması bu bəladan xilasın mümkünlüyü ilə bağlı düşüncələri dəyişməyə bilməzdi. TƏBİB-in vaxtaşırı keçirdiyi mətbuat konfranslarında səsləndirilən rəqəmlərin müsbət məcraya yönəlməsi, vaksinasiyanın tətbiq edilməsi tezliklə bu bəladan xilas olunacağımızı şərtləndirir. Lakin bu hələ o demək deyil ki, koronavirus ölkəmizdən uzaqlaşmaq ərəfəsindədir. Doğrudur, vəziyyətin getdikcə müsbət məcraya doğru dəyişməsi imkan verir deyək ki, qadağalar dövrü arxada qalıb. Bununla əlaqədar olaraq bəzi ictimai-iaşə, xidmət təşkilatları artıq öz əvvəlki iş şəraitinə qayıtmağa başlayıb.

Son günlər yeni dalğanın qaçılmazlığı mətbuatın gündəmini zəbt etməkdədir. Mütəxəssislər bildirirlər ki, zamanla belə dalğavari yoluxmalar koronaviruslara və eləcə də COVID-19 virusuna xasdır. Bu da onu deməyə əsas verir ki, peyvənd çıxmazsa və ya virus mutasiyaya uğrayıb virulentliyini itirməzsə, ölkələrin 70 faizinin əhalisi virusa yoluxub immunitet qazanana qədər pandemiya davam edəcək və biz bir neçə yoluxma dalğası ilə rastlaşacağıq.

Dalğaların bir-birindən xüsusi fərqlənmə predmetləri yoxdur və bunun qarşısını almaq üçün qızıl qaydalar eyni olaraq qalır: ya uzunmüddətli sərt karantin rejiminə keçilməli, ya da tibb elminin tələb etdiyi kimi, ən son izolyasiya tədbirlərinə əməl olunmalıdır. Bununla yanaşı, klasterlərə nəzarət ələ alınmalı və insanların şəxsi məsuliyyətlərinin önəmi onlara davamlı şəkildə, inandırıcı formada izah olunmalıdır ki, iqtisadiyyata ziyan vurulmadan, yəni sərt karantin rejimləri tətbiq edilmədən virus nəzarət altında olsun.

Bəzi ölkələrdə koronavirus sürətlə yayılarkən, bəziləri ikinci dalğa təşvişi yaşadı. Türkiyə mətbuatının verdiyi xəbərə görə, İngiltərənin səhiyyə mütəxəssisləri iyul ayının əvvəlində qadağaların yumşaldılmasından sonra yarana biləcək epidemiya vəziyyəti ilə bağlı hökuməti xəbərdar edib. Bildirilir ki, 100 il əvvəl yaşanan İspan qripinin ikinci dalğası birincidən daha ölümcül olub. Bəs növbəti dalğa qaçılmazdırmı və nə qədər təhlükəli ola bilər?

Bu dalğanı dəniz dalğasına bənzədən mütəxəssislər hesab edirlər ki, o, tamamilə geri çəkilmə olduqdan sonra baş verəcək. Alimlərin fikrincə, hazırda dünya ölkələrində baş verən artım və azalmanın ikinci dalğa ilə əlaqəsi yoxdur. Onlar düşünürlər ki, növbəti dalğanın olması üçün virusun yayılması nəzarət altına alınmalı, yoluxma faktları minimuma düşməlidir. İngilis mütəxəssisləri bildirirlər ki, virus başladığı ilk gündəki kimi, yoluxucu və öldürücü formasını qoruyur. Əgər İngiltərədə hazırda qoyulan qadağalar və əməl olunan qaydalar aradan qaldırılsa, virusla bağlı vəziyyət dəhşətli hal ala bilər. Müxtəlif universitetlərin mütəxəssisləri qış aylarında ikinci dalğanın qaçılmazlığını və hökumətlərin buna hazırlaşmasının vacib olduğunu gizlətmirlər.

Ölkəmizdə virusun yayılması ilə bağlı gərginlik arxada qalıb. Lakin tibbi personalın da yaxşı hazırlaşdığı növbəti dalğanın bizdən yan keçməyəciyini də unutmamalıyıq. Həyatımızın normal məcrasına düşməsi ilk növbədə özümüzdən asılıdır: vaksinasiya prosesində fəal olmaq, qoyulan qaydalara əməl etmək və təbii ki, dezinfeksiyanı, maskanı unutmamaq. Bizi qarşıda pandemiyasız bahar gözləsin deyə məsuliyyətimizi artırmalıyıq. Axı Qarabağda dinc quruculuq işləri xalqımızı gözləyir...

***Məhəmməd NƏRİMANOĞLU,***
***“Azərbaycan”***




# Ermənistan daha böyük siyasi böhranın astanasındadır

*Əvvəli 1-ci səh.*

Bundan başqa, seçkilərin vaxtının dəyişdirilməsi də təklif olunur. Parlament buraxıldıqdan sonra 40 gündən 55 günə qədər seçkilər keçirilməlidir.

Ermənistanın konstitusiyasına görə, hökumət başçısının istefasından sonra deputatlar iki iclasda yeni baş naziri seçə bilməyəcəyi təqdirdə parlament buraxıla bilər. Deputatlar hökumətin proqramını təsdiqləməsə, parlament buraxılır. Konstitusiyaya görə, erkən parlament seçkiləri qanunverici orqanın ləğv edilməsindən sonra 30 gündən tez və 45 gündən gec olmayaraq keçirilir.

Ermənistan müxalifəti isə bu layihəyə qarşı çıxaraq hökuməti istefaya göndərməyi, müvəqqəti hökumət qurmağı və sonra erkən seçki keçirməyi təklif edir. Gözlənilir ki, bununla əlaqədar ölkədə siyasi qarşıdurma yaxın vaxtlarda daha da kəskinləşəcək.

Qeyd edək ki, müharibədə məğlubiyyətin səbəbləri ilə əlaqədar Ermənistanda hər gün müxtəlif səpkidə fikirlər səslənməkdədir. Bu mövzuda Paşinyan hakimiyyəti ilə keçmiş iqtidarların təmsilçiləri arasında kəskinləşən qarşıdurma yeni siyasi çəkişməyə səbəb olub. Belə ki, keçmiş baş nazirin müavini Armen Gevorqyan Qarabağdakı müharibənin səbəbləri və erməni tərəfinin məğlubiyyəti ilə bağlı məqalə yazıb. Qeyd edib ki, Nikol Paşinyan və komandası Qarabağ probleminin həllini Ermənistan iqtisadiyyatına sürətli investisiyaların cəlb edilməsinin və möhkəmlənməsinin qarantı kimi gördü.

Ermənistan rəhbərliyinin səhvlərindən danışan Gevorqyan bildirib ki, Paşinyan hakimiyyətdə olduğu illərdə bir neçə strateji səhv edib. Bu səhvlər isə hazırda məlum olan nəticələrə gətirib çıxarıb. O, Paşinyanın Qarabağ məsələsində “sürətli və dinc həll yolu”na getməsini ilk səhv hesab edir. Gevorqyanın fikrincə, ikinci səhv isə Paşinyan və komandasının Qarabağ məsələsinin detallarını ictimaiyyətdən gizlətməsi və barışıq üçün ictimai rəy hazırlamamasıdır.

Gevorqyan baş nazirin strateji tərəfdaş məsələsində düzgün seçim edə bilmədiyini də düşünür. Buraya Qərbin bəzi ani vədlərinə görə Rusiya ilə illərdir qurulmuş münasibətlərin soyuması daxildir: “Paşinyan və onun komandası Ermənistandakı Rusiyapərəst düşüncəli işgüzar elitanın imkanlarını məhdudlaşdırmağa, onları “köhnə hakimiyyətin şəriki” kimi qələmə verməyə başladı, paralel olaraq Qərb tərəfdaşları hökumət üçün maliyyə yastıqları yaratdılar”.

Beləliklə, sosial-iqtisadi çətinliklər məngənəsində boğulan Ermənistanda müharibədən sonra əhvali-ruhiyyə getdikcə çökməkdədir. Dərin ruh düşkünlüyünə qərq olan əhali çıxış yolunu mühacirətdə görür. Hələlik pandemiya ucbatından ölkəyə giriş-çıxış məhdudlaşdırılıb. Lakin bütün bunlara baxmayaraq, əhalinin sayı yenə sürətlə azalmaqda davam edir, xaricə köçənlərin sayı artır. Əhalinin təbii artım səviyyəsinin get-gedə aşağı düşməsi isə erməni sosioloqlarının hakimiyyətə ünvanlanmış xəbərdarlıqlarının çoxalmasına səbəb olub. Real vəziyyət Ermənistanın faktiki olaraq demoqrafik böhran yaşadığını, bu problemin həlli perspektivinin olmadığını göstərir. Erməni sosioloqu Samvel Manukyan deyib ki, bir il içində 150-200 min erməni mühacirət edə bilər. Köç edənlərin əksəriyyəti isə Rusiya istiqamətini seçəcək. Çünki Rusiya onlara yeni həyat qurmaq üçün daha çox imkanlar vəd edir. Asan sosiallaşma, mövcud məşğulluq imkanları Rusiyada daha böyükdür. Üstəlik, bu ölkədə dil maneəsi yoxdur.

Bütövlükdə bütün bunlar Ermənistanın böyük tənəzzül yaşadığını göstərir. Görünən budur ki, işğal siyasətinin qurbanı olan ölkə üzləşdiyi problemlərdən hələ uzun müddət xilas ola bilməyəcək.

***Elçin CƏFƏROV,***
***“Azərbaycan”***




# Epizootik vəziyyətlə əlaqədar əməl edilməsi zəruri olan qaydalar

Hazırda dünyanın bir sıra ölkələrində yüksək patogen quş qripi xəstəliyi qeydə alınıb və xəstəliyin yayılması arealı genişlənməkdə davam edir. Qeyd edək ki, xəstəliyin törədicisi əksər hallarda vəhşi quşlar vasitəsilə yayılır və ev quşlarının yoluxması xəstə vəhşi quşlarla təmas nəticəsində baş verir.

Qida Təhlükəsizliyi Agentliyindən AZƏRTAC-a bildiriblər ki, köçəri quşların miqrasiya marşrutlarının respublikamızın ərazisindən keçməsi, habelə həmin quşların daimi və müvəqqəti məskunlaşma yerlərinin ölkə ərazisində mövcudluğu quş qripi xəstəliyinin yayılması riskini artırır. Bununla əlaqədar olaraq vətəndaşlar bir sıra mühüm qaydalara əməl etməlidirlər:

- ailə təsərrüfatlarında və müxtəlif həcmli fermer təsərrüfatlarında quşların yalnız qapalı şəraitdə saxlanması, təsərrüfatda olan quşların, həmçinin onların yemlənməsi üçün istifadə olunan yemlərin vəhşi quşlarla təmasının qarşısının alınması;
- ölü halda çöl və ev quşlarına rast gəldikdə bu barədə aidiyyəti üzrə AQTA-nın 1003-Çağrı Mərkəzi və regional bölmələri, rayon baytarlıq idarələri və s. məlumat verilməsi;
- quşlarla təmas zamanı (qulluq, yemləmə, daşınma və s.) gigiyena qaydalarına ciddi şəkildə əməl olunması və sanitariya-gigiyena tələblərinin gözlənilməsi;
- quşların nəqliyyat vasitələrində açıq şəkildə, baytarlıq nəzarətindən kənar və müşayiətedici baytarlıq sənədləri olmadan daşınması;
- quşların açıq şəkildə satılmasına və ya yol kənarlarında, ticarət obyektlərində, ictimai iaşə müəssisələrində və digər yerlərdə diri halda satışının, yaxud nümayiş olunmasının həyata keçirilməməsi;
- qoruq ərazilərində, parklarda, dəniz kənarında və digər açıq ərazilərdə vəhşi və sinantrop (yaşayış yerlərində məskunlaşmış göyərçin, sərçə, qarğa və s.) quşlarla təmasa yol verilməməsi;
- təsərrüfatlara başqa təsərrüfatlardan quş, yem və qulluq əşyalarının gətirilməməsi və s.

Vətəndaşlara epizootik vəziyyətlə bağlı diqqətli olmaq, eyni zamanda xəstəlik əlamətləri müşahidə edilən və ya tələf olan quş cəsədlərindən uzaq durmaq, şübhəli hallarla bağlı dərhal aidiyyəti üzrə məlumat vermələri tövsiyə olunur.

# Dünyada son 100 ilin ən pis böhranı

## Koronavirus pandemiyasının fəsadları ağır olacaq

Dünyanı cənginə almış yeni tip koronavirus can almaqda davam edir. Bir ölkədə COVID-19-a yoluxanların sayı artır, digərində azalır. Son məlumata görə, pandemiya başlayandan bəri Yer kürəsində koronavirusa yoluxma hallarının sayı 100 milyonu keçmişdir. Virusa yoluxanların təxminən dörddə biri ABŞ sakinləridir (25,7 milyon). Hindistan yoluxmuş adamların sayına (10,7 milyon) görə ikinci, Braziliya üçüncü (8,9 milyon), Rusiya dördüncüdür (3,7 milyon). Dünyada COVID-19-dan ölənlərin sayı 2,16 milyon nəfəri ötmüşdür.

Eyni zamanda koronovirusun yeni-yeni ştamları meydana çıxıb ölkələrdə və qitələrdə sürətlə yayılır. Bu yaxınlarda ABŞ-ın Minnesota ştatının sakinində virusun yeni təhlükəli variantı aşkarlanmışdır. O, bir müddət əvvəl Braziliyaya səyahət etmişdi. Laboratoriya analizləri gostərmişdir ki, Minnesota sakini koronavirusun "Brazil P.1" kimi tanınan ştammına yoluxmuşdur. Bu ştammın nə dərəcədə ağır olması hələ məlum deyil.

Xəstəliyə qarşı peyvəndləmə başlasa da, fəlakətin sovuşduğunu təsdiqləmək hələ çox çətindir. Belə ki, dünyanın bütün ölkələri peyvəndlə kifayət qədər təchiz edilməyib. Üstəlik, peyvəndin özü xəstəliyi tamamilə məhv etməyə qadir deyil. Ona görə də bir sıra ölkələr hələ də sərt karantin tədbirləri tətbiq edir, əhalinin sanitar-gigiyena qaydalarına əməl etməsini ön plana çıxarır.

Peyvəndləmə kampaniyasının uğurla nəticələnməsi üçün iki mühüm məsələni həll etmək lazım gələcək. Birincisi, planetin əksər regionlarında, hətta Avropada peyvənd çatışmazlığı müşahidə olunur. Avropa Komissiyasının sədri Ursula fon der Lyayen peyvənd istehsal edən şirkətləri təchizat öhdəliklərini tam yerinə yetirməyə çağırır. O, "Davos gündəliyi" virtual konfransında çıxış edərkən bildirmişdir ki, Avropa dünyada ilk COVID-19 peyvəndlərinin yaradılmasını dəstəkləmək üçün milyardlarla pul xərcləmişdir: "İndi firmalar borclarını yerinə yetirmək üçün təchizatı həyata keçirməlidir".

Peyvəndləmə ilə bağlı başqa bir ciddi problem dərman preparatlarının dünya miqyasında ədalətli bölüşdürülməsidir. Ümumdünya Səhiyyə Təşkilatının baş direktoru Tedros Adhanom Gebreyesus yeni koronavirus peyvəndinin azgəlirli ölkələrdə ədalətli paylanmasını təmin etməyə çağırmışdır. O hesab edir ki, dərmanların bərabər paylanması hər bir ölkənin ortamüddətli və uzunmüddətli iqtisadi maraqlarına cavab verir. Gebreyesus xəbərdarlıq etmişdir ki, azgəlirli ölkələrin peyvənd paylanmasında ədalətli yanaşmadan məhrum olacağı təqdirdə dünya fəlakətli mənəvi tənəzzülün astanasında olacaq: "Yeni araşdırmalar belə bir faktı nümayiş etdirir ki, bu təkcə mənəvi deyil, həm də iqtisadi çöküş olacaq".

Öz növbəsində Cənubi Afrika Respublikasının Prezidenti Siril Ramaposa beynəlxalq ictimaiyyətə koronavirus peyvəndinin varlı və yoxsul ölkələr arasında ədalətsiz paylanması ehtimalı ilə əlaqədar xəbərdarlıq etmişdir. O bildirmişdir ki, "peyvənd millətçiliyi" dövlətlərin pandemiyadan sonra bərpasına təhdid yaradır. Ramaposa vurğulamışdır ki, yalnız bəzi ölkələr öz əhalisini peyvəndləsə, bəşəriyyət koronovirusdan qurtula bilməyəcək və ona görə də dünya ictimaiyyətinin tərəfdaşlığı, həmrəyliyi vacibdir.

Digər tərəfdən, pandemiyanın davam etməsi dünya iqtisadiyyatının indiki vəziyyətinə və gələcəyinə ciddi mənfi təsiri özünü göstərir. Artıq heç kimə sirr deyil ki, pandemiyadan çıxmaq üçün qısa müddət yox, uzun zaman lazım gələcək. Almaniya Kansleri Angela Merkel qeyd edir ki, "pandemiya cəmiyyətimizdə və iqtisadiyyatımızda dərin iz qoymuşdur, gələcək illərdə də həyatımıza təsir göstərməkdə davam edəcək". BMT-nin baş katibi Antonio Quterriş "Davos gündəliyi" tədbirində çıxış edərkən koronavirus üzündən son 100 ildə dünyada "ən pis iqtisadi böhran" yaşandığını nəzərə çarpdırmışdır. O bildirmişdir ki, pandemiya insanlar arasında bərabərsizliyi, işsizliyi və iqlim sabitsizliyini daha da artırmışdır. Baş katib hesab edir ki, bu gün dünyanın vəziyyətini kövrəklik kimi səciyyələndirmək olar. Yeri gəlmişkən, BMT-nin "Dünyanın iqtisadi vəziyyəti və perspektivlər" hesabatında qeyd olunur ki, dünya iqtisadiyyatı ötən il 4,3 faiz azalmışdır. Bu, 2009-cu il qlobal maliyyə böhranı dövrü ilə müqayisədə 2,5 dəfə çoxdur.

Pandemiyanın güclənməsi ilə əlaqədar başqa bir ümumi problem də diqqəti cəlb edir. Bu, borc böhranıdır. Almaniyanın "Erlassjahr.de" və "Misereor" təşkilatlarının birlikdə hazırladığı "Borc hesabatı-2021" tədqiqatında bu barədə söhbət gedir. "Erlassjahr.de"nin eksperti Kristina Rebayn hesabatı təqdim edərkən bildirmişdir ki, cari ilin əvvəllərində araşdırmada təmsil olunan "qlobal Cənub"un 148 ölkəsindən 132-nin kritik dərəcədə yüksək dövlət borcu var. Bir il əvvəl belə ölkələrin sayı 124 idi. Özü də ifrat borc problemi dünyanın təkcə yoxsul ölkələrini əhatə etmir. Siyahıya Şri-Lanka, Misir, Kolumbiya, Anqola və Monqolustan da daxildir. Livan və Zambiyada keçən il dövlət iflası başlamışdır. Ekspert qeyd etmişdir ki, koronavirus pandemiyası əvvəllər də yüksək borcu olmuş ölkələri borc tələsinə qovub salır.

Koronavirusun yayılması şəraitində sosial gərginlik iqtisadi və siyasi baxımdan firavan ölkələrdə də artır. Məsələn, Niderlandda 22 yanvarda tətbiq olunmuş karantin tədbirlərinə etiraz aksiyaları davam edir. Komendant saatının tətbiqi bir çoxlarının xoşuna gəlmir. Ötən bazar ertəsi yüzlərlə niderlandlı gənc Amsterdam, Haaqa, Rotterdam, Zvolle və digər şəhərlərdə koronavirus məhdudiyyətlərinə etiraz etmişdir. Bəzi hallarda etirazçılar hüquq mühafizə orqanlarının əməkdaşlarına hücum etmiş, binaların şüşələrini qırmış, avtobus dayanacaqlarını dağıtmış, mağazaları qarət etmişlər. Polis 150 nəfərdən çox adamı saxlamışdır.

***Allahverdi MEHDİYEV,***
***"Azərbaycan"***

# Azərbaycan Hərbi Dəniz Qüvvələrinin nümayəndə heyəti Türkiyədə səfərdə olub





Azərbaycan Hərbi Dəniz Qüvvələrinin nümayəndə heyəti "Azərbaycan-Türkiyə Hərbi Dəniz Qüvvələri arasında 8-ci Qərargah danışıqları" toplantısında iştirak etmək məqsədilə Ankaraya səfər edib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə iki ölkənin hərbi dəniz qüvvələri arasında əməkdaşlıq məsələləri müzakirə olunub, qarşılıqlı təcrübə mübadiləsinin əhəmiyyəti vurğulanıb və müxtəlif məsələlər üzrə fikir mübadiləsi aparılıb. Səfər zamanı nümayəndə heyəti Türkiyə Respublikasının banisi Mustafa Kamal Atatürkün dəfn olunduğu məqbərəni - Anıtqəbiri ziyarət edib, məzar önünə əklil qoyub və xatirəsini ehtiramla anıb.



## Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi "Azərpoçt" MMC tabeli poçt müəssisələrinin Rulon məhsulları ilə təmin edilməsi üzrə *açıq tender elan edir*

Tender 1 LOT üzrə keçirilir.

LOT 1 Rulon məhsullarının satın alınması

Tender iştirakçılarına təklif edilir ki, **http://www.etender.gov.az** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin Əsas şərtlər toplusunu dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə əldə edə bilərlər.

Hər bir iddiaçı tenderdə iştirak haqqı kimi: LOT 1 600 manat məbləğində pul vəsaitini "ASAN Ödəniş" sistemi ilə bank hesabına köçürməlidir:

**"Azərpoçt" MMC**
**VÖEN: 9900037711**
**Bankın adı: "Azərpoçt" MMC**
**Kodu: 690001**
**VÖEN: 9900037711**
**Müxbir hesab: AZ76NABZ01350100000000094944**
**Hesab №: AZ82AZPO99995381000420000125**
**S.W.I.F.T.Bik: AZPOAZ22**
**İştirak haqqı LOT üzrə ödənməlidir.**

İddiaçılar tərəfindən ödənilmiş iştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada təqdim etməlidirlər:

- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən maliyyə hesabatının surəti);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən bank arayışı);*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);*
- *iddiaçının analoji iş təcrübəsini təsdiq edən sənədlər;*
- *potensialı, maddi-texniki və kadr imkanları haqqında işçilərin siyahısı və məlumatları ətraflı əks etdirən arayış;*
- *tenderin əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər;*
- *iddiaçının tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *iddiaçının tender təklifinin bank təminatı (zərflər açıldığı gündən ən azı 60 bank günü müəyyən edilir və təklifin qiymətinin ən azı 1 (bir) faizini təşkil etməlidir).*

İddiaçılar konsorsium yaratmaqla tenderdə iştirak etmək istəyirsə, konsorsium barədə müqavilə və ya razılaşma, eləcə də konsorsium iştirakçısı olan bütün şirkətlər barədə yuxarıda göstərilən zəruri sənədləri (məlumatları) təqdim etməlidirlər.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və tender təklifinin bank təminatı istisna olmaqla) 18 fevral 2021-ci il saat 11:00-dək, tender təklifini və tender təklifinin bank təminatını isə 26 fevral 2021-ci il saat 18:00-dək dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş təkliflər dövlət satınalmalarının vahid internet Portalında nəzərə alınmayacaqdır.

İddiaçıların təklifləri 01 mart 2021-ci il saat 11:00-da açılacaqdır. Təkliflərin açılışı dövlət satınalmalarının vahid internet Portalında virtual iclas formatında aparılacaqdır.

Elektron satınalmanın hər bir iştirakçısına onun təklifinin açılmasını və qiymətləndirilməsini müşahidə etmək üçün bərabər şərait yaradılır.

Tenderlə əlaqədar istənilən məlumatı əldə etmək üçün aşağıdakı şəxsə müraciət etmək olar:

Oktay İsmayılov - Tender komissiyasının üzvü, (tel: +99412-493-56-00, faks: +99412-493-00-37).

***Tender komissiyası***

## Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsi Məişət tullantılarının daşınması və zərərsizləşdirilməsinin kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir

Maraqlanan təşkilatlar +99412 590-81-60 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 29.01.2021-ci il saat 02:00-dan 03.02.2021-ci il saat 02:00-dək qəbul olunur.

**Ünvan: Xırdalan, Binəqədi şosesi, 4.**
**Telefon: +99412 590-81-60**
**E-mail: itts703@rambler.ru**

***Tender komissiyası***

## Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsi DYP-nin YPXA-na yeni qəbul olunmuş əməkdaşların təlim-tədris prosesi üzrə satınalmalar kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir

Maraqlanan təşkilatlar +99412 590-81-60 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 29.01.2021-ci il saat 02:00-dan 03.02.2021-ci il saat 02:00-dək qəbul olunur.

**Ünvan: Xırdalan, Binəqədi şosesi, 4.**
**Telefon: +99412 590-81-60**
**E-mail: itts703@rambler.ru**

***Tender komissiyası***

## Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsi Baş Dövlət Yol Polisi İdarəsinin www.dyp.gov.az saytının dəstəklənməsi, saytda yerləşdirilən materialların ingilis dilinə tərcümə olunması, "On-line" müraciət moduluna texniki dəstəyin göstərilməsi, www.dyp.gov.az saytının əlilliyi olan şəxslər üçün versiyasının hazırlanması və xüsusi karantin rejimi dövründə etibarnamə əsasında nəqliyyat vasitələrinin özgəninkiləşdirilməsi ilə əlaqədar qeydiyyat hərəkətlərinin aparılması üçün icazə proqram modulunun hazırlanması və dyp.gov.az saytında yerləşdirilməsi ilə bağlı işlərin kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir

Maraqlanan təşkilatlar +99412 590-81-60 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 29.01.2021-ci il saat 02:00-dan 03.02.2021-ci il saat 02:00-dək qəbul olunur.

**Ünvan: Xırdalan, Binəqədi şossesi, 4.**
**Telefon: +99412 590-81-60**
**E-mail: itts703@rambler.ru**

***Tender komissiyası***


# Beynəlxalq aləm

## İran uranın zənginləşdirilməsi prosesini sürətləndirir



İran uran yanacağının daha tez zənginləşdirilməsi üçün üç aydan gec olmayaraq təxminən 1000 sentrifuqa quraşdırmaq niyyətindədir. Bu barədə İran Atom Enerjisi Təşkilatının mətbuat katibi Bəhruz Kamalvandi məlumat verib.

Beynəlxalq razılaşmalara əsasən, İran uranı 3,67 faizdən çox olmayan səviyyəyə qədər zənginləşdirə bilər. Ancaq hazırda islam respublikası uranı 17 faiz səviyyəsində 20 kiloqram ağırlığında zənginləşdirir.

"Sanksiyaların aradan qaldırılmasından imtina etdiyi halda, İran MAQATE-nin zəmanətləri haqqında" Sazişə əlavə protokoldan imtina etmək niyyətindədirmi" sualına cavab verən Kamalvandi bildirib ki, tədbirlər qanunvericiliyə uyğun olaraq həyata keçiriləcək: "Hökumət və parlament qərar qəbul edib. Biz bütün qanunları yerinə yetirəcəyik".

İran parlamenti "Sanksiyaların ləğvi üzrə strateji fəaliyyət planı" adlı qanun qəbul edib. Qanun qısa müddətdə nüvə işlərinin sürətləndirilməsini nəzərdə tutur.

## Vaşinqton BƏƏ-yə və Səudiyyə Ərəbistanına silah satışını dayandırdı

ABŞ Prezidenti Cozef Baydenin administrasiyası Birləşmiş Ərəb Əmirliklərinə (BƏƏ) və Səudiyyə Ərəbistanına silah satışına müvəqqəti qadağa qoyub. Bu barədə "Wall Street Journal" qəzeti xəbər verir.

Məlumata görə, Baydenin köməkçiləri eks-prezident Donald Trampın dövründə təsdiqlənmiş milyardlarla dollarlıq silah satışı əməliyyatlarını qiymətləndirirlər. Xüsusilə yüksək dəqiqlikli döyüş sursatlarının və beşinci nəsil F-35 qırıcılarının BƏƏ-yə və Səudiyyə Ərəbistanına satışı ilə bağlı məsələlər nəzərdən keçirilir. Bildirilir ki, Vaşinqton göstərilən silahları Əbu Dabiyə satmağa İsrail və BƏƏ arasında ikitərəfli münasibətlərin tamamilə normallaşdırılmasına dair sazişin əldə edilməsi ilə əlaqədar razı olub.Vaşinqton həmin silahların Yəməndə istifadə edilməyəcəyinə əmin olmaq istəyir.

## Livanda etirazlar: yaralı nümayişçi dünyasını dəyişdi



Livanın şimalında yerləşən paytaxtla eyniadlı Trablis şəhərində hüquq mühafizə orqanları əməkdaşları ilə hökumət əleyhinə aksiyaların iştirakçıları arasında qarşıdurma fonunda gərginlik davam edir. Bu barədə Livanın NNA agentliyi xəbər verir.

Məlumata görə, dünən 30 yaşlı yaralı nümayişçi vəfat edib. Həkimlərin səylərinə baxmayaraq, gəncin həyatını xilas etmək mümkün olmayıb.

Etiraz aksiyaları yanvarın 25-dən davam edir. Yüzlərlə livan iqtisadi böhrana və koronavirus infeksiyasının (COVID-19) yeni dalğası ilə əlaqədar yanvarın 14-də tətbiq olunan fövqəladə vəziyyət rejiminin uzadılmasına etiraz edir. Polis və ordu etirazçılara qarşı gözyaşardıcı qaz və səs qumbaralarını tətbiq edib.

Ümumilikdə təhlükəsizlik qüvvələri ilə hökumət əleyhinə aksiya iştirakçıları arasında qarşıdurma nəticəsində son günlər 226 nəfər xəsarət alıb.

## Tərtər rayon sakininin minaya düşməsi faktı üzrə araşdırma aparılır

Yanvarın 28-də saat 12 radələrində Azərbaycan Respublikasının vətəndaşı, 1987-ci il təvəllüdlü Ələkbərov Elgün Mahmud oğlu Tərtər rayonunun işğaldan azad olunmş ərazisində traktorla yer şumlaması işləri apararkən tank əleyhinə minaya düşməsi nəticəsində müxtəlif dərəcəli bədən xəsarətləri alıb.

Tərtər Rayon Prokurorluğundan AZƏRTAC-a daxil olan məlumata görə, prokurorluq və polis əməkdaşları tərəfindən hadisə yerinə baxış keçirilib, məhkəmə-tibb ekspertizası təyin edilib, digər zəruri prosessual hərəkətlər yerinə yetirilib.

Hazırda faktla bağlı Tərtər Rayon Prokurorluğunda araşdırma aparılır.

## DİN hüquq müdafiəçisi Oktay Gülalıyevin xəsarət alması ilə nəticələnmiş hadisə barədə məlumat yayıb

2019-cu il oktyabrın 29-da hüquq müdafiəçisi Oktay Gülalıyevin xəsarət alması ilə nəticələnən yol-nəqliyyat hadisəsini törətmiş sürücü məhkəmənin hökmü ilə 2 il 3 ay müddətə azadlıqdan məhrum edildikdən sonra fəaliyyətləri böhtan və təxribat üzərində qurulmuş bəzi şəxslər sosial şəbəkə hesablarında məqsədli şəkildə məsələni yenidən gündəmə daşımağa cəhd edir, yalan iddialar irəli sürürlər.

Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, fakta görə başlanılmış cinayət işi üzrə Baş Prokurorluğun və DİN-in peşəkar müstəntiqləri tərəfindən həyata keçirilmiş istintaq hərəkətləri, mütəxəssislərinin əldə etdiyi təkzibolunmaz sübutlar və Ədliyyə Nazirliyinin ixtisaslı əməkdaşlarının apardığı çoxsaylı ekspertizalarla hadisənin məhz sürücünün səhlənkarlığı və diqqətsizliyi səbəbindən baş verdiyi təsdiqlənib, nəticələri barədə zərərçəkmişin yaxınları və respublika ictimaiyyəti məlumatlandırılıb.

"Daxili İşlər Nazirliyinin vəzifəli şəxslərinin həkimlərlə mütəmadi telefon əlaqəsi saxlaması barədə səsləndirilən cəfəng fikirlərə gəldikdə isə, qeyd etməliyik ki, aidiyyəti əməkdaşlarımız istintaq prosesində həkimlərlə, ekspertlərlə, şahidlərlə də əlaqə saxlaya bilər və bu onların qanunla müəyyən edilmiş konkret vəzifə borcudur" deyə nazirliyin məlumatında qeyd olunub.

## Xırdalandakı partlayışda zərər çəkmiş sakinlər kirayə evlərdə yerləşdirilib

Abşeron Rayon İcra Hakimiyyətində bu il yanvarın 25-də Xırdalan şəhərinin 27-ci məhəlləsində baş vermiş partlayış nəticəsində yararsız vəziyyətə düşmüş 1B saylı binanın sakinləri ilə görüş keçirilib. Görüşdə rayon icra hakimiyyətinin başçısı İradə Gülməmmədova və Prezident Administrasiyasının məsul işçisi Habil Əzməmmədov iştirak ediblər.

Rayon icra hakimiyyətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə İ.Gülməmmədova baş vermiş hadisədə dünyalarını dəyişənlərə Allahdan rəhmət, xəsarət alanlara isə şəfa diləyib. İcra başçısı qeyd edib ki, bu məsələ Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın nəzarətindədir. Zərər görmüş 41 ailənin kirayə evlərlə təmin edildiyini deyən İ.Gülməmmədova vurğulayıb ki, Fövqəladə Hallar Nazirliyinin əməkdaşları tərəfindən dəymiş ziyan və binanın dayanıqlığı ilə bağlı araşdırma aparılıb. Zərər dəymiş mənzillərə baxış keçirildiyini, müvafiq aktların tərtib edildiyini deyən İ.Gülməmmədova araşdırmanın nəticəsindən asılı olaraq binanın təmiri ilə bağlı qərar veriləcəyini vurğulayıb.

Prezident Administrasiyasının məsul işçisi Habil Əzməmmədov da məsələnin dövlətin diqqətində olduğunu qeyd edərək deyib ki, zərər görmüş sakinlərin kirayə evlərdə yerləşdirilməsi ilk növbədə görülməsi vacib olan məqamdır. Qış ayı olması və havaların soyuq keçməsi səbəbindən sakinlər dərhal normal şəraitli kirayə mənzillərlə təmin edilib. Onun sözlərinə görə, FHN-in verəcəyi qərardan asılı olaraq aparılacaq təmir işləri də sürətli şəkildə həyata keçiriləcək.

## Azərbaycan Respublikası Ağstafa Rayon İcra Hakimiyyəti 2021-ci il üçün *açıq tender elan edir*

Tender 1 LOT üzrə keçirilir.

LOT-1: Ağstafa rayonunda aztəminatlı ailələrin mənzil şəraitlərinin yaxşılaşdırılması üçün tikinti materiallarının satın alınması

İştirak haqqı 150 manatdır.

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/** dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatları əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

İddiaçılar öz tender təkliflərində bütün vergi rüsumları və digər xərclərini nəzərə almalıdırlar.

Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**Əlaqələndirici şəxs: Dəmirçiyev Elmin (0-2222 53241)**
**Ünvan: Ağstafa şəhəri, H.Arif küçəsi, 3**
**Bank rekvizitləri:**
**Ağstafa Rayon İcra Hakimiyyəti**
**VÖEN: 3600071061**
**Hesab: AZ35CTRE00000000000002513731**
**DXA**
**Kodu: 210005**
**VÖEN: 1401555071**
**M/h: AZ41NABZ01360100000000003944**
**S.W.İ.F.T. - CTREAZ22**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi olkə və rekvizitləri;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifinin dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *podratçının müəyyən etdiyi digər sənədlər.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **19.02.2021-ci il saat 12:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **01.03.2021-ci il saat 12:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **02.03.2021-ci il saat 12:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

E-şərtlər toplusunu 01.02.2021-ci il tarixdən sonra əldə etmək olar.

***Tender komissiyası***

## OXUCULARIN NƏZƏRİNƏ! "AZƏRBAYCAN"

*qəzetinə 2021-ci il üçün abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 440-46-94, (012) 441-19-91* |
| *"Azərpoçt" ASC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Kaspi" MMC* | *(012) 432-39-55, (012) 510-82-24* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

*1 illik*
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

*6 aylıq*
62,40 (altmış iki manat qırx qəpik) manat

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**

## Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu dərman, sarğı ləvazimatlarının və materiallarının satın alınması üçün *kotirovka sorğusu elan edir*

Təkliflər 01 fevral 2021-ci il saat 11:00-a qədər Bakı şəhəri, H. Zərdabi prospekti, 80 ünvanına, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondunun Aparatına təqdim olunmalıdır.

Zərflər 01 fevral 2021-ci il saat 14:00-da H.Zərdabi prospekti, 80 ünvanında nazirliyin tabeliyində Dövlət Sosial Müdafiə Fondunun Aparatının inzibati binasında açılacaqdır. Əlavə məlumatı Tender komissiyasından almaq olar.

Əlaqə telefonu: 012-530-29-03

***Tender komissiyası***

## Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi "Azərpoçt" MMC tabeli poçt müəssisələrinin Poçt göndərişləri üçün karton bağlama qutular ilə təmin edilməsi üzrə *açıq tender elan edir*

Tender 1 LOT üzrə keçirilir.

LOT 1. Poçt göndərişləri üçün karton bağlama qutular

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az /** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin Əsas şərtlər toplusunu dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə əldə edə bilərlər.

Hər bir iddiaçı tenderdə iştirak haqqı kimi: LOT 1 - 300 manat məbləğində pul vəsaitini "ASAN Ödəniş" sistemi ilə bank hesabına köçürməlidir:

**"Azərpoçt" MMC**
**VÖEN: 9900037711**
**Bankın adı: "Azərpoçt" MMC**
**Kodu: 690001**
**VÖEN: 9900037711**
**Müxbir hesab: AZ76NABZ01350100000000094944**
**Hesab №: AZ82AZPO99995381000420000125**
**S.W.I.F.T.BIK: AZPOAZ22**
**İştirak haqqı LOT üzrə ödənməlidir.**

İddiaçılar tərəfindən ödənilmiş iştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada təqdim etməlidirlər:

- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən maliyyə hesabatının surəti);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən bank arayışı);*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);*
- *iddiaçının analoji iş təcrübəsini təsdiq edən sənədlər;*
- *tenderin Əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər;*
- *iddiaçının tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *iddiaçının tender təklifinin bank təminatı (zərflər açıldığı gündən ən azı 60 bank günü müəyyən edilir və təklifin qiymətinin ən azı 1 (bir) faizini təşkil etməlidir).*

İddiaçılar konsorsium yaratmaqla tenderdə iştirak etmək istəyirsə, konsorsium barədə müqavilə və ya razılaşma, eləcə də konsorsium iştirakçısı olan bütün şirkətlər barədə yuxarıda göstərilən zəruri sənədləri (məlumatları) təqdim etməlidirlər.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və tender təklifinin bank təminatı istisna olmaqla) 18 fevral 2021-ci il saat 11:00-dək, tender təklifini və tender təklifinin bank təminatını isə 26 fevral 2021-ci il saat 18:00-dək dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş təkliflər dövlət satınalmalarının vahid internet Portalında nəzərə alınmayacaqdır.

İddiaçıların təklifləri 01 mart 2021-ci il saat 11:00-da açılacaqdır. Təkliflərin açılışı dövlət satınalmalarının vahid internet Portalında virtual iclas formatında aparılacaqdır.

Elektron satınalmanın hər bir iştirakçısına onun təklifinin açılmasını və qiymətləndirilməsini müşahidə etmək üçün bərabər şərait yaradılır.

Tenderlə əlaqədar istənilən məlumatı əldə etmək üçün aşağıdakı şəxsə müraciət etmək olar:

Oktay İsmayılov - Tender komissiyasının üzvü (tel: +99412-493-56-00, faks: +99412-493-00-37).

***Tender komissiyası***

## Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi "Azərpoçt" MMC tabeli poçt müəssisələrinin "Azərpoçt" MMC-nin inzibati binası və tabeli poçt şöbələri üçün yeni yanğınsöndürmə avadanlıqlarının satın alınması, mövcud yanğınsöndürən balonların (quru kimyəvi tozlu və karbon dioksid tipli) yenidən doldurulması xidmətinin təmin edilməsi üzrə *açıq tender elan edir*

Tender 1 LOT üzrə keçirilir.

LOT 1. "Azərpoçt" MMC-nin inzibati binası və tabeli poçt şöbələri üçün yeni yanğınsöndürmə avadanlıqlarının satın alınması, mövcud yanğınsöndürən balonların (quru kimyəvi tozlu və karbon dioksid tipli) yenidən doldurulması xidməti

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin Əsas şərtlər toplusunu dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə əldə edə bilərlər.

Hər bir iddiaçı tenderdə iştirak haqqı kimi: LOT 1 - 150 manat məbləğində pul vəsaitini "ASAN Ödəniş" sistemi ilə bank hesabına köçürməlidir:

**"Azərpoçt" MMC**
**VÖEN: 9900037711**
**Bankın adı: "Azərpoçt" MMC**
**Kodu: 690001**
**VÖEN: 9900037711**
**Müxbir hesab: AZ76NABZ01350100000000094944**
**Hesab №: AZ82AZPO99995381000420000125**
**S.W.I.F.T.BIK: AZPOAZ22**
**İştirak haqqı LOT üzrə ödənməlidir.**

İddiaçılar tərəfindən ödənilmiş iştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada təqdim etməlidirlər:

- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən maliyyə hesabatının surəti);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən bank arayışı);*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);*
- *iddiaçının analoji iş təcrübəsini təsdiq edən sənədlər;*
- *yanğınsöndürən balonların satılması və dolum xidmətinin aparılması üçün müvafiq lisenziyanın olması;*
- *tenderin Əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər;*
- *iddiaçının tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *iddiaçının tender təklifinin bank təminatı (zərflər açıldığı gündən ən azı 60 bank günü müəyyən edilir və təklifin qiymətinin ən azı 1 (bir) faizini təşkil etməlidir).*

İddiaçılar konsorsium yaratmaqla tenderdə iştirak etmək istəyirsə, konsorsium barədə müqavilə və ya razılaşma, eləcə də konsorsium iştirakçısı olan bütün şirkətlər barədə yuxarıda göstərilən zəruri sənədləri (məlumatları) təqdim etməlidirlər.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və tender təklifinin bank təminatı istisna olmaqla) 18 fevral 2021-ci il saat 11:00-dək, tender təklifini və tender təklifinin bank təminatını isə 26 fevral 2021-ci il saat 18:00-dək dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş təkliflər dövlət satınalmalarının vahid internet Portalında nəzərə alınmayacaqdır.

İddiaçıların təklifləri 01 mart 2021-ci il saat 11:00-da açılacaqdır. Təkliflərin açılışı dövlət satınalmalarının vahid internet Portalında virtual iclas formatında aparılacaqdır.

Elektron satınalmanın hər bir iştirakçısına onun təklifinin açılmasını və qiymətləndirilməsini müşahidə etmək üçün bərabər şərait yaradılır.

Tenderlə əlaqədar istənilən məlumatı əldə etmək üçün aşağıdakı şəxsə müraciət etmək olar:

Oktay İsmayılov - Tender komissiyasının üzvü (tel: +99412-493-56-00, faks: +99412-493-00-37).

***Tender komissiyası***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti sahil obyektlərində və gəmilərində istifadə olunan metroloji ölçmə vasitələrinin müqayisəli yoxlanması üçün illik texniki xidmətlərin satın alınması məqsədilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər.

Müraciət üçün son müddət 8 fevral 2021-ci il saat 18:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Ünvan: Bakı, Heydər Əliyev prospekti, 152, "Çinar plaza", 24-cü mərtəbə.

Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263.

***Tender komissiyası***

## Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsi Hüquqi yardım xidmətlərinin kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir

Maraqlanan təşkilatlar +99412 590-81-60 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 29.01.2021-ci il saat 02:00-dan 03.02.2021-ci il saat 02:00-dək qəbul olunur.

**Ünvan: Xırdalan, Binəqədi şosesi, 4.**
**Telefon: +99412 590 81-60.**
**E-mail: itts703@rambler.ru**

***Tender komissiyası***

## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin rəhbərliyi, parlament Aparatının və İşlər İdarəsinin kollektivləri Milli Məclisin deputatı Anar Məmmədova atası

**İLYAZ MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyeva və aparatın əməkdaşları iş yoldaşları Nailə Vəliyevaya anası

**MƏLAHƏT XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvləri Tahir Mirkişili, Əli Məsimli, Mahir Abbaszadə, Elnur Allahverdiyev, Vüqar Bayramov, Məzahir Əfəndiyev, Vahid Əhmədov, İmamverdi İsmayılov, Rüfət Quliyev, Aydın Hüseynov, İqbal Məmmədov, Məşhur Məmmədov, Ziyad Səmədzadə və Ağalar Vəliyev komitənin üzvü Anar Məmmədova atası

**İLYAZ MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi Dövlət Neft Şirkətinin sosial məsələlər üzrə vitse-prezidenti Bədəl Bədəlova qardaşı

**ÜMİDVAR BƏDƏLOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Elmira Süleymanova Azərbaycanın Belçika Krallığında və Lüksemburq Böyük Hersoqluğundakı fövqəladə və səlahiyyətli səfiri, Avropa İttifaqı yanında nümayəndəliyinin rəhbəri Fuad İsgəndərova atası

**ELDAR İSGƏNDƏROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri,
Mətbuat prospekti,
529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 5104
Sifariş 183
Qiyməti 40 qəpik